Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 165 (8188) ÇƏRŞƏNBƏ, 31 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İdmanda İLHAM ƏLİYEV missiyası

İdman paytaxtına çevrilən Bakıda ən nüfuzlu beynəlxalq yarışların təşkili Azərbaycana böyük imic qazandırıb. “Bakı-2015” ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

## İdmanda yüksəliş dövrü

Xatırladaq ki, sovet dövründə idmançılarımız yalnız SSRİ-nin adı və bayrağı altında beynəlxalq idman yarışlarına qatıla bilirdilər. Ölkəsinin bayrağını qaldırmaq, himnini səsləndirmək o dövrün qalib Azərbaycan idmançısına nəsib olmurdu. Müstəqillik dövründə isə vəziyyət başqadır. Doğrudur, ötən əsrin 90-cı illərinin əvvəllərində, xaos və anarxiya dövründə idmançılarımız iştirak hüququ qazandıqları yarışlara belə vəsait çatışmazlığından qatıla bilmirdilər. Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtmasından sonra bu sahədə vəziyyət kökündən dəyişdi.

1992-1997-ci illərdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı. Həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ölkənin idman həyatına müsbət təsir edəcək işləri, demək olar ki, görmədi. İdmanın inkişafı ilə bağlı əsas yük dövlət strukturlarının üzərinə düşürdü.

Həmin vaxt Atlanta Olimpiadasına hazırlıq üzrə Təşkilat Komitəsi yaradıldı. Olimpiya oyunlarına hazırlıq və respublikanın təmsil olunması istiqamətində işlərin həyata keçirilməsinə dövlət strukturları cəlb olundu. Ümumən MOK-un fəaliyyətinin ilk beşilliyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə əlaqəsi yox idi.

Belə bir vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev MOK-un prezidenti seçildi. Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli bir addım atıb. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçməyə başladı. Olimpiya Hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı. Cənab İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib rol oynayırdı. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edərək İlham Əliyev Olimpiya Hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətini müəyyənləşdirdi. Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya Hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü. Azərbaycanın Beynəlxalq Olimpiya Komitəsi (BOK) və Avropa Olimpiya Komitəsi (AOK) kimi nüfuzlu təşkilatlar da daxil olmaqla, dünyanın bütün idman qurumları ilə sıx əlaqələri yarandı.

## Maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası qoyuldu

Milli Olimpiya Komitəsinin fəaliyyətində canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitmədi, həm də maddi-texniki bazanın gücləndirilməsi sahəsini əhatə etdi. Ölkədə idmanın sürətli inkişafını və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası qoyuldu.

MOK 1999-cu ildən öz obyektlərinin tikintisinə başladı və 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya Kompleksinin açılış mərasimi oldu.

Ardı 3-cü səh.

# Bakı şəhərində keçirilən Avropa Gənclər Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində keçirilən Avropa Gənclər Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri aşağıdakı məbləğdə mükafatlandırılsınlar:

1.1. birinci yeri tutan hər bir idmançı - 10 000 manat, onun şəxsi məşqçisi - 5000 manat;

1.2. ikinci yeri tutan hər bir idmançı - 7000 manat, onun şəxsi məşqçisi - 3500 manat;

1.3. üçüncü yeri tutan hər bir idmançı - 5000 manat, onun şəxsi məşqçisi - 2500 manat;

1.4. komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə şəxsən öz adımdan və İrlandiya xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Bu fürsətdən istifadə edərək zati-alinizə xoşbəxtlik, Azərbaycan xalqına isə əmin-amanlıq və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Maykl HİGGİNS,***
***İrlandiyanın Prezidenti***

Cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə Burkina-Faso xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu gözəl fürsətdən istifadə edərək Sizə və xalqınıza cansağlığı, sülh, rifah və davamlı tərəqqi arzulayıram.

Əmin ola bilərsiniz ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin davamlı olaraq möhkəmlənməsi üçün Sizinlə birgə işləməyə daim hazıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Rok Mark Kristian KABORE,***
***Burkina-Fasonun Prezidenti***

# Dostluq və qardaşlıq münasibətlərinin növbəti təcəssümü

### Azərbaycanın Türkiyə vətəndaşları üçün viza tələbini ləğv etməsi iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə böyük töhfə verəcək

Bu il sentyabrın 1-dən etibarən Azərbaycana 30 günədək müddətə səfər etmək istəyən Türkiyə vətəndaşları üçün viza tələbi ləğv edilir. Bununla bağlı artıq Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən Türkiyə Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota ünvanlanıb.



Azərbaycan XİN-nin bu barədə mətbuata açıqlamasında deyilir: “Xalqlarımız arasında ortaq etnik-mədəni, tarixi köklərə, qardaşlıq və dostluq, həmrəyliyə söykənən Azərbaycan və Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamına uyğun olaraq ən yüksək səviyyədədir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səyləri ilə ikitərəfli münasibətlərimiz uğurla inkişaf etməkdədir. Hərtərəfli inkişaf edən Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ölkələrimiz arasında viza sahəsində əməkdaşlığın dəyərləndirilməsini və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirir”.

Elə buna görə də Azərbaycan Türkiyənin ümumvətəndaş pasportuna malik vətəndaşları üçün 1 sentyabr 2019-cu il tarixindən etibarən vizanı ləğv edir. Təbii ki, ölkəmizin bu addımı iki qardaş dövlət arasında qardaşlıq və dostluq münasibətlərinin bundan sonra da yüksələn xətlə inkişafına növbəti töhfə olacaq.

Ardı 3-cü səh.

# İlin əvvəlindən ölkəmizin valyuta ehtiyatları 9,7 faiz artıb

### Azərbaycanın xarici iqtisadi mövqeyi yaxşılaşmaqda davam edir



Xəbər verildiyi kimi, Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyəti uçot dərəcəsinin 8,5 faizdən 8,25 faizə endirilməsi haqda qərar qəbul etmişdir. Faiz dəhlizinin yuxarı həddi 10,25, aşağı həddi isə 6,25 faiz (uçot dərəcəsinə ±2 faizlik diapazonda) müəyyən olunmuşdur.

AMB-nin bununla bağlı yaydığı məlumatda bildirilir ki, dəqiqləşdirilmiş proqnozlara görə, cari ilin sonuna qədər inflyasiyanın hədəf diapazonunda (4±2 faiz) olacağı, lakin daxili tələbin genişlənməsilə bağlı ilin sonuna onun hədəf intervalının yuxarı hissəsində formalaşacağı gözlənilir. İlin qalan dövründə pul siyasəti qərarları inflyasiya proqnozunun reallaşması, yeni trendin reallaşma potensialı, o cümlədən daxili və xarici risklər balansının qiymətləndirilməsi əsasında veriləcək.

Mərkəzi Bank açıqlamasında, həmçinin bir sıra məqamlara aydınlıq gətirmiş, vacib izahatları vermişdir:

**İnflyasiya prosesləri.** İdarə Heyətinin monetar siyasətə həsr olunmuş sonuncu toplantısından sonra mövsümi amillərin təsiri ilə deflyasiya qeydə alınmış, qiymətlərin ümumi səviyyəsi iyunda 0,5 faiz aşağı düşmüşdür. 12 aylıq inflyasiya hədəf diapazonunun mərkəzindən aşağıda olmaqla 2,9 faiz təşkil etmişdir. İnflyasiya səviyyəsinə başlıca təsiri ərzaq qiymətlərinin artımı (4,3 faiz) göstərir. Tərəvəz məhsullarının, aksizli malların qiymət artımları ərzaq inflyasiyasının səviyyəsini şərtləndirən başlıca amillərdir.

Ardı 3-cü səh.

# Nazirlər Kabinetinin növbəti iclası

İyulun 30-da Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov əvvəlcə gündəlik barədə məlumat verib. Bildirib ki, iclasda "Azərbaycan Respublikasında istilik enerjisi və isti su təchizatı sisteminin yaxşılaşdırılması və səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər və əldə edilmiş nəticələr, bu sahənin müasir standart və tələblərə uyğun təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr haqqında" və "Azərbaycan Respublikasında akvakulturanın inkişaf perspektivləri və bununla əlaqədar görülməli tədbirlər haqqında" məsələlər müzakirə olunacaq.

Novruz Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın bütün sahələrində həyata keçirilən strategiya əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, dünya iqtisadiyyatına inteqrasiyanın daha da sürətlənməsinə imkan yaradır. Ölkəmizin şəhər və rayonlarında bir sıra mühüm sosial infrastruktur layihələri uğurla icra olunur.

Baş Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası"nın layihəsinin hazırlanması Energetika Nazirliyinə tapşırılıb. Həmçinin bu sərəncamla Energetika Nazirliyi ölkədə qaz və istilik təchizatı sistemlərinin səmərəliliyini artırmaq, istehlakçıların tələbatının etibarlı şəkildə ödənilməsini təmin etmək üçün bu sahələrdə islahatların aparılması ilə bağlı təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. "Ölkəmizdə dayanıqlı istilik təchizatı sisteminin yaradılması, əhalinin keyfiyyətli istilik enerjisi ilə təmin olunması vacib məsələdir. Nazirlər Kabinetinin iclasında bu sahədəki mövcud vəziyyətin müzakirəsi də önəmlidir", - deyə Baş Nazir diqqətə çatdırıb.

"Azərbaycan Respublikasında akvakulturanın inkişaf perspektivləri və bununla əlaqədar görülməli tədbirlər haqqında" məsələ ilə bağlı fikirlərini bölüşən Novruz Məmmədov qeyd edib ki, balıqçılığın və akvakulturanın kənd təsərrüfatının tərkib hissəsi olduğunu nəzərə alaraq bu sahədə beynəlxalq təcrübəyə əsaslanan idarəetmə sisteminin yaradılması, müasir tələblərə uyğun təkmilləşdirilmə və struktur islahatlarının aparılması zəruridir. Balıqçılıq sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla milli standartların hazırlanması, balıq məhsullarının təhlükəsizliyinin təmin olunması və keyfiyyət göstəricilərinin yüksəldilməsi, bu məhsulların baytarlıq-sanitariya tələblərinə uyğun müasir ixtisaslaşdırılmış satış mərkəzlərinin yaradılması, onların istehsalı və ixracı üzrə marketinq fəaliyyətinin genişləndirilməsi istiqamətlərində müvafiq tədbirlərin həyata keçirilməsi daha da intensivləşdirilməlidir.

Sonra "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin sədri Yaşar Həsənovun, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Kənd Təsərrüfatı naziri İnam Kərimovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda müzakirə edilən məsələlərlə bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Daxili İşlər Nazirliyində İndoneziya nümayəndə heyəti ilə görüş



İyulun 30-da Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan İndoneziya Respublikasının Nümayəndələr Palatası sədrinin müavini Fadli Zonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Vilayət Eyvazov ölkəmizin və xalqımızın qədim tarixə, mədəniyyətə, beynəlxalq aləmdə gedən proseslərə əhəmiyyətli təsirə malik, dünyanın ən böyük müsəlman dövləti olan İndoneziya Respublikası və xalqı ilə münasibətlərin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. O, ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri, respublikamızın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, ədalətli şəkildə həlli prosesində İndoneziyanın hər zaman Azərbaycanın haqq işini müdafiə etməsini məmnunluqla xatırladaraq bu əhəmiyyətli dəstəyə görə təşəkkürünü bildirib.

Sonra nazir Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi problemlər, ölkədə hökm sürmüş hərc-mərclik, anarxiya, cəzasızlıq mühiti, eyni zamanda, Ermənistanın hərbi müdaxiləsi nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, nəticədə bir milyondan artıq soydaşımızın doğma yurd yerlərindən didərgin düşməsi barədə məlumat verib. Qeyd olunub ki, xalqın tələbi ilə ali hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti, rəhbərliyi ilə hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkədə asayiş, əmin-amanlıq bərpa edilib, kriminogen durum nəzarət altına alınıb. Sabitliyin dönməzliyinin təmin olunması üçün görülən işlər, əmin-amanlıq ölkə iqtisadiyyatının durmadan inkişafı üçün əlverişli şərait yaradıb. Belə təhlükəsiz şəraitdən vətəndaşlarımız kimi ölkəmizdə fəaliyyət göstərən əcnəbilərin, o cümlədən İndoneziya vətəndaşlarının da yararlandıqları nəzərə çatdırılıb.

Vilayət Eyvazov DİN-in strukturu və funksional vəzifələrindən söz açaraq cəmiyyət həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, baş verən yeniliklər barədə ətraflı məlumat verib. Ulu Öndərin strateji kursunun, fəal hüquq mühafizə siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini məmnunluqla vurğulayan Daxili İşlər naziri əməliyyat-xidməti fəaliyyətin əsasında insan hüquq və azadlıqlarının qorunması, vətəndaş məmnunluğu amilinin dayandığını xüsusi qeyd edib. O, bu işdə, vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi baxımından ən müasir informasiya texnologiyalarının, xüsusən DİN-in "Təhlükəsiz Şəhər", "102 Zəng Xidməti" Mərkəzinin, digər müasir texnoloji vasitələrin imkanlarından da geniş istifadə olunduğunu vurğulayıb.

Problemlərdən danışılarkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərinin, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin diqqət mərkəzində olduğu, belə qlobal xarakterli təhlükəli cinayətlərlə səmərəli mübarizədə beynəlxalq birliyin səylərinin birləşdirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

Səmimi görüşə və ətraflı məlumata görə təşəkkür edən Fadli Zon respublikamıza ilk səfəri zamanı nümayəndə heyətinin üzvlərində artıq Azərbaycan haqqında çox sürətlə inkişaf edən, dinamik, müasir və təhlükəsiz ölkə imicinin formalaşdığını, qədim tarix və sivilizasiyalar məskəni olaraq dövlətlərimiz və xalqlarımızı ümumi, oxşar cəhətlərin birləşdirdiyini məmnunluqla bildirib. Qonaq qarşılıqlı səfərlərin, geniş ünsiyyətin və mütəmadi təmasların ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edəcəyinə, parlamentarilərin də bu əməkdaşlığa töhfə verəcəklərinə əminliyini ifadə edib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinə nail olunması üçün səylərini əsirgəməyəcəklərini bildirib.

Səmimilik və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Dayanıqlı və möhkəm əsaslı gələcək

## Azərbaycan regionda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə ən uğurlu ölkədir

"Azərbaycan BMT, Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə birlikdə regionda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə ən uğurlu ölkədir. Məhz bunu nəzərə alaraq Azərbaycanda bu istiqamətdə pilot layihələrin həyata keçirilməsi də mümkündür".

Bu fikirləri iyulun 18-də BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper söyləyib. Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovla keçirdiyi görüşdə Robert Piper Azərbaycanda aparılan sosial-iqtisadi islahatları və ölkəmizin DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. Baş katibin müşaviri Azərbaycanda qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işlər barədə, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda Könüllü Milli Hesabatın təqdim edildiyini bildirərək ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi müsbət yanaşmanın nümunəsi olduğunu diqqətə çatdırıb. Robert Piper DİM-lərə nail olunmasında bütün maraqlı tərəflərin prosesə cəlb olunmasının vacibliyini qeyd edərək xüsusilə bu istiqamətdə dövlət-özəl sektor tərəfdaşlığının əhəmiyyətini vurğulayıb.

Əli Əhmədov Azərbaycanın BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə əməkdaşlığının uğurla davam etdiyini, bu əməkdaşlıq çərçivəsində bir sıra uğurlu layihələrin həyata keçirildiyini, o cümlədən ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulmaqla əməkdaşlıqda yeni səhifə açıldığını diqqətə çatdırıb.

Xatırladaq ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri 2000-2015-ci illər ərzində həyata keçirilmiş Minilliyin İnkişaf Məqsədləri əsasında hazırlanıb. 2016-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində elan edilib. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Həmin sammitdə Azərbaycan da Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Bir neçə gün əvvəl isə BMT-nin Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın ikinci Könüllü Milli Hesabatı təqdim olunub. Hesabat iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.

Dayanıqlı inkişaf məqsədləri dedikdə gələcək nəsillərin öz ehtiyaclarını qarşılamaq imkanına xələl gətirmədən, bugünkü ehtiyacların qarşılanmasına imkan verən inkişaf nəzərdə tutulur. Bu məqsədlər yoxsulluğa və aclığa son qoymaq, yaşından asılı olmayaraq hər kəsin sağlam yaşamasını təmin etmək və rifah halını yaxşılaşdırmaq, hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək, gender bərabərliyinə nail olmaq, dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək, möhkəm infrastruktur yaratmaq, innovasiyaların inkişafına dəstək vermək, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlər görmək, su ehtiyatlarını qorumaq və onlardan səmərəli istifadə etmək üçün ölkələrin qlobal fəaliyyət istiqamətlərini müəyyən edəcək yeni inkişaf gündəliyinin təməlini qoyub. Bununla da Dayanıqlı İnkişaf Məqsədləri əslində insanlar və planet üçün inklüziv, dayanıqlı və möhkəm əsaslı gələcək qurmaq üçün birgə razılaşdırılmış səylər göstərməyə çağırır.

Yüz milyonlarla insanın həyatı məhz həmin inkişaf gündəliyinin birgə tətbiqi nəticəsində yaxşıya doğru dəyişib. Belə ki, Minilliyin İnkişaf Məqsədləri yoxsulluğun azaldılması, daha yaxşı içməli su mənbələrinə çıxışın təminatı, yoxsul təbəqənin həyat səviyyəsinin yaxşılaşdırılması, ibtidai təhsildə gender bərabərliyinin təmin olunması kimi hədəfləri reallaşdırıb. Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinin tətbiqi dövründə yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə qədər azalıb, məktəblərə qeydiyyat dərəcəsi ibtidai, ümumi və tam orta təhsil səviyyələrində 100 faiz təşkil edib, gender bərabərliyinin təşviqi və qadınların səlahiyyətlərinin artırılmasında tərəqqiyə nail olunub.

Ancaq Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş hədəflər daha böyükdür. Qarşıya 17 prioritet vəzifə qoyulub. Yeni məqsədlərin özünəməxsusluğu isə odur ki, bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləyir.

Azərbaycan dövləti bu 17 məqsədi əhatə edən uğurlu dövlət siyasəti həyata keçirməkdədir. Ölkəmiz bu məqsədlərə qoşulmazdan öncə də qeyd olunan 17 istiqamət üzrə böyük nailiyyətlər əldə edib. Sosial-iqtisadi sahədə qazandığımız uğurlar, əhalinin sağlamlığının qorunması ilə bağlı atılan addımlar, mütərəqqi təhsil, ekologiya siyasəti, gender bərabərliyinin qorunması göstərir ki, Azərbaycanın inkişafı kompleks xarakter daşımaqla dövlətin və xalqın maraqlarını təmin edir.

Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilən iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının reallaşdırılması üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi önəm daşıyır. Məhz buna görə də Prezident İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanı ilə "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Milli Əlaqələndirmə Şurasının əsas vəzifəsi qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin, eyni zamanda onlara dair göstəricilərin müəyyənləşdirilməsi, habelə ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasıdır. Qeyd etdiyimiz kimi, ötən müddət ərzində Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlər BMT tərəfindən yüksək qiymətləndirilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İranın hərbi gəmiləri Bakıya gəlib

"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak edəcək İran Hərbi Dəniz Qüvvələrinin "Peykan" və "Cövşən" raket katerləri iyulun 30-da Bakıya gəlib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Dəniz Kuboku" müsabiqəsi avqustun 3-17-də keçiriləcək.

# Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qərargahında Qazaxıstan və İran nümayəndə heyətləri ilə görüşlər keçirilib

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov iyulun 30-da Qazaxıstan Hərbi Dəniz Donanmasının nümayəndəsi, 1-ci dərəcəli kapitan Kanat Niyazbekovun və İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi, 1-ci dərəcəli kapitan Hüseyn Həsəninin rəhbərlik etdikləri nümayəndə heyətləri ilə görüşlər keçirib.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsinin təşkilinə dair fikir mübadiləsi aparılıb.


# "Azəristiliktəchizat" ASC
## *açıq tenderə dəvət edir*

Tender 3 LOT üzrə keçirilir:

LOT 1 - Qaz sayğacları və qaz avadanlıqları və onların ehtiyat hissələrinin satın alınması
LOT 2 - İstilik təsərrüfatlarında nəzarət ölçü cihazları və avtomatika avadanlıqları və onların ehtiyat hissələrinin satın alınması
LOT 3 - Qazanxana və istilik şəbəkələri üçün müxtəlif markalı nasos və ehtiyat hissələrinin satın alınması

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər LOT-lar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı
LOT 1 - 150 manat
LOT 2 - 150 manat
LOT 3 - 150 manat

H/h: AZ62AIIB33010019442200226122
VÖEN: 1700531291
Kapital Bankın Qaradağ filialı
Kod: 200220
VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
SWİFT: AIIBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21 avqust 2019-cu il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə 30 avqust 2019-cu il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 02 sentyabr 2019-cu il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*



## B İ L D İ R İ Ş

*"Azərişıq" ASC Yaşma, Yaşma Bağları və Şuraabad Külək Elektrik Stansiyalarında quraşdırılmış külək enerjili elektrik qurğularının daimi işlək vəziyyətdə saxlanması məqsədi ilə tələb olunan xüsusi təyinatlı geyim dəstlərinin satın alınması üzrə kotirovka sorğusu keçirir.*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 02 avqust 2019-cu il saat 15.00-dək aşağıdakı ünvana təqdim etməlidirlər: Bakı şəhəri, Ə.Qayıbov küçəsi 8.

Əlaqə telefonu (012) 440-39-93 (23-32).

*Tender komissiyası*

# İdmanda İLHAM ƏLİYEV missiyası

*Əvvəli 1-ci səh.*

Paytaxtdan başlayan quruculuq işləri bölgələrə doğru genişləndirildi. Regionlarda olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi həmin yerlərin idman hərəkatının tərəqqisi üçün önəmli rol oynadı.

Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-dək Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. İndi demək olar ki, respublikamızın bütün bölgələrində olimpiya idman kompleksləri fəaliyyət göstərir. Azərbaycanın ucqar rayonlarında belə müxtəlif idman növləri ilə məşğul olmaq üçün mövcud şərait var.

## Yay Olimpiya Oyunlarında medal yağışı

İlham Əliyevin MOK-un prezidenti seçilməsindən cəmi 3 il sonra - 2000-ci ildə Azərbaycan idmançıları Sidneydə keçirilən Yay Olimpiya Oyunlarında çıxış etdilər və çox möhtəşəm tarixi bir zəfərə imza atdılar. 199 ölkənin qatıldığı XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə olimpiadada iştirak etdi. Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan komandasına ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftahətdinova qazandırdı. Ölkəmizə ikinci qızıl medalı güləşçi Namiq Abdullayev gətirdi.

"Sidney-2000" Yay Olimpiya Oyunlarında Azərbaycan boksunun salnaməsinə də ilk Olimpiya medalı yazıldı. 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu. İki qızıl və bir bürünc mükafatla Azərbaycan medal alan ölkələr arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Azərbaycan idmanı Sidney sınağından zəfərlə çıxdı.

2004-cü ildə Afina Olimpiadasında 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı.

Bu oyunlarda BOK-un üzvü olan 204 ölkədən 202-si iştirak edirdi. Atletlərimiz XXVIII Yay Olimpiya Oyunlarında 5 medal (1 qızıl, 4 bürünc) qazandılar. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçikçaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, "Sidney-2000" Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftahətdinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar. Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

XXIX Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz 44 idmançı ilə təmsil olunurdu. Bu yarışda təmsilçilərimiz digər Olimpiya oyunlarından həm idmançıların, həm də qazanılan medalların sayına görə fərqlənirdi. Komandamız Olimpiya oyunlarında ilk dəfə hər üç əyarda medallara sahib oldu. Ölkəmizə olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Finala qədər bütün rəqiblərinə vaxtından əvvəl "ipponla" qalib gələn E.Məmmədli həlledici görüşdə koreyalı idmançını 13 saniyəyə məğlub edərək 73 kq çəkidə güclü oldu.

Gümüş medalları yunan-Roma güləşində Rövşən Bayramovla (55 kq) Vitali Rəhimov (60 kq) qazandılar. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşində Mariya Stadnik (48 kq), boksda Şahin İmranov (57 kq) və cüdoda Mövlud Mirəliyev (100 kq) bürünc medala layiq görüldülər. Beləliklə, 2008-ci ildə keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

2012-ci ildə Londonda XXX Yay Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 10 medal qazandılar. Bununla da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci sırada yer tutdu. İki qızıl, iki gümüş və altı bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MDB-də isə 5-ci yerdə qərarlaşdı.

Londonda güləşçilərimiz Toğrul Əsgərov və Şərif Şərifov qızıl, Rövşən Bayramov və Mariya Stadnik gümüş medalın sahibi oldular. Digər üç güləşçimiz - Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə çıxışlarını bürünc medalla başa vurdular. Digər üç bürünc medalı isə ağırlıqqaldıran Valentin Xristov və boksçularımız Teymur Məmmədovla Məhəmmədrəsul Məcidov qazandılar.







2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirdə Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu. Sevindirici haldır ki, buna kimi iştirak etdiyimiz son 5 olimpiadada qazanılan medallar 5 idman növündə qeydə alınmışdısa, bu dəfə say 7-yə yüksəldi. Bunlar güləş, atıcılıq, cüdo, boks, ağırlıqqaldırma, avarçəkmə (kayak və kanoe) və taekvondodur.

İdmanın ayrı-ayrı növlərinə gəlincə, başa çatmış Olimpiya oyunlarında idmançılarımız ən çox güləş (14 lisenziya), boks (11 lisenziya), cüdo (6 lisenziya) və taekvondoda (4 lisenziya) təmsil olunmuşdular. Əldə edilən nəticələr isə bir-birindən fərqlidir.



Bundan əvvəlki olimpiadalarda ölkəmizə medal yazdıran pəhləvanlarımız bu dəfə də 9 medal qazandılar. Güləş yığmamızın aktivinə 3 gümüş medalı pəhləvanlar (Mariya Stadnik, Toğrul Əsgərov və Xetaq Qazyumov) əlavə etdilər. Digər 6 güləşçimiz - Cəbrayıl Həsənov, Rəsul Çunayev, Nataliya Sinişin, Sabah Şəriəti, Şərif Şərifov və Hacı Əliyev isə çıxışlarını bürünc medalla başa vurdular.

Cüdoçular bu dəfə etimadı doğrultdular. Rüstəm Orucov və Elmar Qasımov 4 illiyin zirvə yarışını gümüş medalla başa vurdular.

Tarixində ilk dəfə Olimpiya oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi "Rio-2016"da ən yaxşılardan biri olub. Braziliyaya 4 idmançı ilə yollanan yığmamız okeanın o tayında 3 medal əldə edib. Radik İsayev Azərbaycanın yeganə qızıl medalının sahibi olub. Milad Beiqi Harçeqani və Patimat Abakarova bürünc medal qazandıqlarına seviniblər. Boksçulardan Sotomayor Lorenzo gümüş, Kamran Şahsuvarlı bürünc medala sahib olublar.

Ölkəmizin hesabına daha bir gümüş medalı avarçəkmə yarışlarında Valentin Demyanenko, bürüncü isə İnna Osipenko-Rodomskaya əlavə edib.

Beləliklə, idmançılarımız indiyə qədər keçirilmiş son 6 olimpiadada iştirak edərək ümumilikdə 44 medal qazanıblar.

## "Bakı-2015"dən "Bakı-2019"dək

Son 4 ilə nəzər yetirdikdə isə ən böyük idman hadisələrindən biri sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının 2015-ci ildə Bakıda keçirilməsi idi. Ölkəmiz 2 il davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

Nümunəvi və qüsursuz təşkilatçılığı, möhtəşəm açılış və bağlanış mərasimləri ilə yadda qalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrildi. 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu.

2017-ci il mayın 12-22-də isə Azərbaycan daha bir nüfuzlu tədbirə - sayca IV İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etdi. Həmin ərəfədə milyonlarla insanın qəlbi Azərbaycanda döyündü. İslamiadanın ölkəmizdə keçirilməsi haqqında qərarın qəbul edilməsi bir daha göstərdi ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır. Eyni zamanda bu hadisə Azərbaycanda həyata keçirilən idman siyasətinin uğurlarından xəbər verirdi. Yarış günlərində paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq 1-ci yeri tutdular.

Bu ilin yaddaqalan idman hadisələrindən biri də sözsüz ki, Belarusun paytaxtı Minskdə təşkil olunan II Avropa Oyunları idi. Azərbaycan 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla 28 medal qazanaraq 50 ölkə arasında ilk onluqda yer tutdu.

Bu günlərdə isə paytaxtımızda XV Avropa Gənclər Olimpiya Festivalına yekun vuruldu. Bir həftə davam edən yarışlarda 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan 10-u qızıl, 7-si gümüş, 6-sı bürünc olmaqla 23 medal qazanaraq iştirakçı dövlətlər arasında 4-cü yeri tutdu.

## Dünyanın idman paytaxtı

Bu il də paytaxtımızda bir sıra nüfuzlu turnirlər təşkil edilib. Onların içərisində sözsüz ki, "Formula-1" üzrə Qran-pri yarışları xüsusi yer tutur. Aprelin 26-28-də Bakı planetin bir nömrəli avtomobil yarışına 4-cü dəfə evsahibliyi etdi. "Formula-1" dünya çempionatının 4-cü mərhələsi olan SOCAR Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 67 ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.

Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Valtteri Bottas 1 saat 31 dəqiqə 52,942 saniyəlik nəticə ilə "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin qalibi oldu. İkinci yeri "Mercedes" komandasının digər üzvü Lyuis Hamilton, üçüncü yeri isə "Ferrari" komandasının sürücüsü Sebastyan Fettel tutdular.

Mayın 29-da isə Bakı Avropa futbolunun böyük həyəcanla gözlədiyi qitənin nüfuzlu klub turnirlərindən olan UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Bakı Olimpiya Stadionunda keçirilmiş həlledici matçda İngiltərənin "Çelsi" və "Arsenal" komandaları üz-üzə gəldilər. London derbisində 4:1 hesabı ilə qələbə qazanan "Çelsi" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

Xatırladaq ki, Avroliqanın finalının 2019-cu ildə Bakıda keçirilməsi haqqında qərar UEFA İcraiyyə Komitəsinin 20 sentyabr 2017-ci il tarixli iclasında verilmişdi. Azərbaycan Prezidenti İlham Əliyev 7 may 2018-ci ildə final matçının paytaxtımızda keçirilməsi ilə əlaqədar təşkilat komitəsinin yaradılması haqqında sərəncam imzalamışdı. Final oyununu tələb olunan səviyyədə keçirmək üçün yerli təşkilat komitəsi nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra etmiş, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmişdi. Ölkəmizə gəlmiş azarkeşlər həlledici matçın ən müasir arenada keçirildiyini qeyd etməklə yanaşı, Azərbaycan xalqının səmimiliyinə və qonaqpərvərliyinə, Bakının və bütövlükdə ölkənin sürətli inkişafına heyran qaldıqlarını bildirdilər.

Beləliklə, Azərbaycan idmançıları qazandıqları nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda gərgin mübarizə aparırlar. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları ölkəmizin qarşıdakı nüfuzlu yarışlarda yüksək nəticələr göstərərək, əvvəlki mövqelərini daha da yaxşılaşdıracağına inam yaradır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dostluq və qardaşlıq münasibətlərinin növbəti təcəssümü

## Azərbaycanın Türkiyə vətəndaşları üçün viza tələbini ləğv etməsi iki ölkə arasında əlaqələrin daha da dərinləşməsinə böyük töhfə verəcək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin hələ illər öncə qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə əlaqələrinin dünyada analoqu yoxdur. Elə buna görə də Azərbaycan-Türkiyə əlaqələrindən söz açdıqda diqqəti cəlb edən əsas məsələ yalnız əməkdaşlığın genişləndirilməsi və ya dərinləşdirilməsi deyil, bu iki türk dövləti arasındakı dostluq və qardaşlıq münasibətlərinin özünün ən yüksək zirvəsinə çatmasının əsas müzakirə mövzusudur. 27 il əvvəl xalqımız müstəqilliyinə nail olduqdan sonra iki türk dövləti arasında vaxtilə mövcud olmuş tarixi əlaqələr də bərpa edildi. Türkiyə ilə münasibətlər Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra sürətli inkişaf mərhələsinə qədəm qoydu. Məhz bundan sonra iki ölkənin əlaqələri Ümummilli Liderin "Bir millət, iki dövlət" tezisi əsasında sürətlə inkişaf etməyə başladı. Heydər Əliyev hər zaman Azərbaycanla Türkiyə arasında dərin kökləri olan dostluq əlaqələrinə diqqətlə yanaşırdı. Məhz Ulu Öndərin qayğısı nəticəsində iqtisadi və ticarət əlaqələrinin inkişafında yeni mərhələnin əsası qoyuldu. Təsadüfi deyil ki, Heydər Əliyevin müəllifi olduğu enerji strategiyasında Türkiyə ilə dostluq və qardaşlıq münasibətləri də nəzərə alındı, Azərbaycanın karbohidrogen ehtiyatlarını dünya bazarlarına çatdıran kəmərlər bu ölkənin ərazisindən keçməklə çəkildi.

Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Türkiyə münasibətləri həm də strateji önəm daşıyır. İki ölkə arasındakı sıx hərbi əməkdaşlıq da bundan irəli gəlir. Artıq uzun illərdir ki, iki ölkə arasında strateji səviyyəyə yüksəlmiş hərbi əlaqələr mövcuddur. Türkiyə hərbçiləri və mütəxəssisləri ölkəmizdə həyata keçirilən ordu quruculuğunda, zabit kadrların hazırlanmasında yaxından iştirak edərək öz təcrübələrini əsirgəməyiblər. Bu gün Türkiyə Azərbaycanın həm də silah aldığı əsas ölkələrdən biridir. Silahlı Qüvvələrimizin arsenalında Türkiyə müdafiə sənayesinin məhsulu olan mühüm hərbi texnika və silah-sursat yer alır. Onların bir qismi hərbi paradlarda nümayiş olundu.

Azərbaycana hərbi dəstəyini əsirgəməyən Türkiyənin ağrılı problemimiz - Dağlıq Qarabağ məsələsində də mövqeyi prinsipialdır. Bu münaqişənin həllində Türkiyə qədər Azərbaycana dəstək verən ölkə olmayıb. Türkiyə Ermənistanla sərhədlərini bu ölkənin Azərbaycanın 20 faiz ərazisini işğal etdiyi üçün bağlayıb. İndiyədək Türkiyədə hakimiyyətdə olan bütün siyasi dairələr birmənalı olaraq bəyan ediblər ki, Ermənistanla sərhədlərin açılmasının əsas şərti Azərbaycan ərazilərinin işğaldan azad edilməsidir. Türkiyə rəsmiləri dəfələrlə bildiriblər ki, Azərbaycanla həmrəyliyi bundan sonrakı müddətdə də eyni qətiyyətlə davam etdirəcəklər.

Ötən illərdə həm Azərbaycan, həm də Türkiyə çox böyük inkişaf yolu keçib. Təbii ki, bu inkişaf həm də iki ölkənin münasibətlərində özünü göstərir. Xüsusən energetika sahəsində əməkdaşlıq dərinləşib, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri ilə yanaşı, "Cənub qaz dəhlizi" iki dövləti bir-birinə daha da yaxınlaşdırıb. Bu kəmər və onun tərkibi olan TANAP Azərbaycanla Türkiyə arasındakı sosial, iqtisadi və digər sahələrdə indiyədək mövcud olan qardaşlıq münasibətlərinə əlavə dəstəkdir. Bunlardan başqa, ideya təşəbbüsü yenə də Azərbaycana məxsus olan Bakı-Tbilisi-Qars dəmiryolu xətti bu birliyin daha möhtəşəm görüntüsünü yaradır. Təbii ki, bütün bu layihələrin gerçəkləşməsində Azərbaycanın bu bölgədə həyata keçirdiyi müstəqil siyasət və Prezident İlham Əliyevin siyasi iradəsi mühüm rol oynayıb.

"Cənub qaz dəhlizi" ilə yanaşı, ötən il Azərbaycan və Türkiyənin birgə səyləri ilə ərsəyə gətirilən möhtəşəm infrastruktur sahələrinin sırasına biri də əlavə olundu: Azərbaycanın sərmayəsi ilə Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Star" Neft Emalı Zavodu istifadəyə verildi. Bu gün "Star" zavodu qardaş ölkədə enerji və neft sektorunun inkişafına, həmçinin Türkiyə və Azərbaycan arasındakı qardaşlıq və dostluğun daha da möhkəmlənməsinə töhfə verməkdədir.

Beləliklə, indiyədək hər iki dövlət etnik və milli-mədəni ortaqlıqdan çıxış edərək münasibətlərin inkişafı, daha yüksək səviyyəyə çatdırılması üçün qarşılıqlı olaraq bütün zəruri addımları atıblar. Azərbaycan tərəfindən vizanın ləğvi isə münasibətlərin daha da irəli aparılması üçün ortaya qoyulan siyasi iradənin növbəti təcəssümüdür.

Azərbaycanın Türkiyə vətəndaşları üçün viza rejimini ləğv etməsi ikitərəfli münasibətlər baxımından çox önəmlidir. Təbii ki, bu qərar ilk növbədə iki dövlət arasındakı siyasi münasibətlərin, dostluq və qardaşlıq əlaqələrinin ən yüksək səviyyədə olmasının təsdiqidir. Digər tərəfdən vizanın ləğvi Azərbaycan və Türkiyə arasında iqtisadi münasibətlərin dinamikasına son dərəcə pozitiv təsir göstərəcək, ticarətin dərinləşməsini, turizmin, habelə kiçik və orta biznesin inkişafını təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İlin əvvəlindən ölkəmizin valyuta ehtiyatları 9,7 faiz artıb

## Azərbaycanın xarici iqtisadi mövqeyi yaxşılaşmaqda davam edir

*Əvvəli 1-ci səh.*

Qeyri-ərzaq (1,3 faiz) və xidmətlər üzrə illik qiymət artımı (2,3 faiz) inflyasiya hədəfi diapazonunun mərkəzindən aşağıda formalaşmışdır. Məcmu tələbin genişlənməsi şəraitində antiinflyasyon monetar şərait, habelə ikitərəfli və çoxtərəfli məzənnələrin dinamikası inflyasiya təzyiqini səngidir.

**İnflyasiya gözləntiləri.** Real sektor monitorinqinin nəticələrinə əsasən iyunda qiymət gözləntiləri əvvəlki aya nisbətən ticarət və tikinti sektorlarında azalmış, qeyri-neft emalı sənayesində və xidmət sahələrində artmışdır. Ev təsərrüfatları arasında iyun ayında aparılan sorğunun nəticələrinə görə, inflyasiya tempinin yüksələcəyini gözləyən respondentlər azalmaqda davam edir və onların payı cəmi 2,3 faizdir. Bununla belə, aparılmış təhlillər inflyasiya gözləntilərinin həssas və asimmetrik olduğunu göstərir. 2019-cu ilin sonuna inflyasiyanın hədəf daxilində (4±2 faiz) qalacağı, daxili tələbin genişlənməsilə bağlı ilin sonuna onun hədəf intervalının yuxarı hissəsində formalaşacağı proqnozlaşdırılır.

**Xarici şərait.** Ölkənin xarici iqtisadi mövqeyi yaxşılaşmaqda davam edir. Xarici ticarət balansı profisitlidir və artmaqdadır. Yanvar-iyun aylarında malların ixracı 15,2, o cümlədən qeyri-neft ixracı 13,5 faiz artmaqla monetar qızıl idxalı nəzərə alınmadan qeyri-neft idxalının artım tempini (11,6 faiz) üstələmişdir. Neftin orta qiyməti ilin ötən dövründə 66 dolları ötmüşdür.

Profisitli tədiyyə balansı şəraitində ölkənin strateji valyuta ehtiyatları ilin əvvəlindən 9,7 faiz və ya 4,3 milyard dollar artaraq 49,1 milyard dollara çatmışdır.

Beynəlxalq təşkilatlar cari ildə qlobal iqtisadi artım, o cümlədən ölkəmizin bir neçə əsas ticarət tərəfdaşları üzrə iqtisadi artım proqnozlarını azalmağa doğru təshih etmişdir. Qlobal qeyri-müəyyənliklər və ticarət qarşıdurmaları qalmaqdadır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, dünya ərzaq qiymətləri cari ilin əvvəlindən 7,1, o cümlədən ət məhsulları üzrə 8,4, süd məhsulları üzrə 17,2 faiz bahalaşmışdır.

**İqtisadi aktivlik.** İqtisadi artım xarici tələb, istehlakın və qeyri-neft investisiyalarının genişlənməsi ilə dəstəklənir. 2019-cu ilin birinci yarımilliyində ötən ilin eyni dövrünə nəzərən ümumi daxili məhsul istehsalı real olaraq 2,4 faiz artmışdır. Qeyri-neft sektorunda isə artım 3,2 faiz olmuş və bu artım əsasən ticari sektordan qaynaqlanmışdır. İqtisadiyyatın qeyri-neft sektoruna yatırılan investisiyalar birinci yarımillikdə 5,1 faiz artmışdır. Ev təsərrüfatlarının gəlirlərinin artım tempinin yüksəlməsi müəyyən gecikmə effekti ilə pərakəndə ticarət və pullu xidmətlərin artım tempinin yüksəlməsi ilə müşayiət olunur. Real sektorun monitorinqi əsasında hesablanan biznes inam indeksi son ayda ticarət və xidmət sektorunda artmışdır.

**İnflyasiya riskləri.** İnflyasiya üzrə risklər balansında xarici amillər əhəmiyyətli olaraq qalır. Geosiyasi və geoiqtisadi amillər dünya əmtəə bazarlarında volatilliyi və məzənnə, inflyasiya gözləntilərini gücləndirə bilər.

AMB tərəfindən əhalinin gəlirlərinin və istehlak davranışının analizi göstərir ki, ilin ikinci yarısında bu amillərin inflyasiyaya təsiri bir qədər aktivləşə bilər. Hazırda isə valyuta bazarında, xüsusilə fiskal kanal vasitəsilə təklifin tələbi əhəmiyyətli üstələməsi milli valyutanın məzənnəsinin möhkəmlənməsinə davamlı təzyiq yaradır.

İnflyasiya risklərinin neytrallaşdırılması həlledici dərəcədə qəbul edilmiş makroiqtisadi çərçivənin effektli icrasından - büdcə qaydalarına əsaslanan fiskal intizamdan və qiymət sabitliyinə yönəlmiş çevik və müstəqil monetar siyasətdən asılıdır.

**Monetar şərait.** İdarə Heyətinin monetar siyasətə həsr olunmuş son iclasından keçən dövrdə monetar şəraitin yumşalması davam etmişdir. İlin əvvəlindən manatla pul bazası 7 faiz artmışdır. Pul təklifinin artım tempinin yüksəlməsi başlıca olaraq sosial xarakterli fiskal stimulların həyata keçirilməsi nəticəsində xəzinə hesabından xərcləmələrin aktivləşməsi ilə bağlıdır.

AMB-nin faiz dəhlizi parametrlərinin dəyişməsindən əlavə iyul ayının 1-dən etibarən Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan əmanətlər üzrə maksimal faizlərin azaldılması bank resurslarının dəyərini azaltmaqla kredit faizlərinə azaldıcı təsir göstərməlidir.

Faiz dəhlizinin parametrləri barədə növbəti qərarlar inflyasiya hədəfinə nail olunması vəziyyəti, xarici və daxili risk balansında dəyişikliklər, xüsusən də fiskal stimulların qiymətlərə transmissiyasından asılı olaraq qəbul ediləcək. İnflyasiyanın hədəf və proqnoz daxilində formalaşacağı halda monetar şəraitin neytrallığa doğru dəyişmə trendi davam etdirilə bilər.

***İqtisadiyyat şöbəsi***




# Qazaxın kəndlərində arxeoloji qazıntılar davam edir

Qədim tarixə malik Azərbaycanın hələ də öyrənilməmiş əraziləri çoxdur. İstər yerli, istərsə də xarici mütəxəssislərin apardıqları qazıntılar zamanı çoxlu sayda tapıntılar aşkar edilir, bir çox suallara aydınlıq gətirilir.

Qazax rayonunda da arxeoloji qazıntılar zamanı çoxlu sayda faktlar aşkar edilmişdir. Rayondakı belə yerlərdən biri "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki dünya əhəmiyyətli Damcılı mağara düşərgəsidir. Damcılı mağara düşərgəsinin ətrafında



dünya əhəmiyyətli arxeoloji irsi tədqiq etmək üçün üçtərəfli - Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və Yaponiyanın Tokio Universiteti arasında memorandum imzalanmışdır. Memoranduma əsasən, ilk arxeoloji qazıntılara 2016-cı ilin avqust ayının 8-də "Avey" DTMQ-nin ərazisində yerləşən dünya əhəmiyyətli mağara düşərgəsində başlanılmışdır. İlkin tədqiqatlar zamanı kəşfiyyat xarakterli 10-a yaxın müxtəlif istiqamətlərdə qazıntı işləri aparılmışdır. Yaponiyalı alimlər yerli mütəxəssislərlə birgə qazıntı işləri apararkən Orta əsrlərə, Tunc dövrünün sonuna aid Neolit dövrü qalıqları, ocaq yerləri, Orta Paleolit dövrünün son mərhələsini əks etdirən qəlpə, nüvə tullantıları və alət nümunələri əldə olunmuşdur.

Bu ərazidə ikinci arxeoloji qazıntılar 2017-ci il iyulun 17-dən 30-na kimi aparılmışdır. Həmin il bir quyu üzərində 5 metrədək dərinlikdə aparılan qazıntı işləri zamanı torpaq horizontal təbəqəyə bölünmüş, müxtəlif dövrlərə aid nümunələr tapılmışdır. Memoranduma əsasən, Yaponiyanın Tokio Universitetinin əməkdaşları 2018-ci ilin iyulun 12-dən etibarən artıq 3-cü dəfə Damcılı mağara düşərgəsində qazıntı işlərini davam etdirmişlər.

Bu günlərdə isə arxeoloqlar 4-cü dəfə arxeoloji qazıntılara başlamışlar. İyulun 16-dan başlanan növbəti qazıntı işləri ilə əlaqədar rayon rəhbərliyi də Damcılı mağara düşərgəsində olmuş, yerli və yaponiyalı arxeoloqlarla görüşüb, işlərin gedişi ilə maraqlanmışlar. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Səadət Əliyeva demişdir ki, arxeoloji qazıntılarda Tokio Universitetinin professoru Yoşihiro Nişiakinin rəhbərliyi ilə həmin universitetin üzvlərindən Çie Akaşi, doktorant Fumika İkeyama, Qədim Şərq Muzeyinin arxeoloqu Kazuya Şimoqama, Azərbaycan Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Mənsur Mənsurov, Yaqub Məmmədov, Ülviyyə Heydərova və Əjdər Babayev iştirak edirlər. Qazıntıların davam etdirilməsində Daş dövrünə aid nümunələri əldə etməklə burada qədim insan məskəninin olduğunu, həmçinin burada yaşayan insanların gəlmə deyil, yerli sakinlər olduqlarını öyrənmək, eləcə də Neolit dövrü ilə Mezolit dövrü arasında olan əlaqəni müəyyənləşdirməkdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Sahə aqronomu



Sahə aqronomu Dünyamir Quliyev axşamüstü sahədən "P - Aqro" MMC-nin həyətinə qayıdan kultivatorlardan, dərmansəpən aqreqatların mexanizatorlarından gördükləri işin yekununu öyrəndikdən sonra dedi: "Bilirəm, bu gün kənddə toydur, balalarınız, subaylarınız üçün olsun. Xeyirşər borcdur. Mən də orada olacağam".

Ertəsi gün saat 7-də Dünyamir torpaq mülkiyyətçiləri və fermerlər tərəfindən MMC-yə verilən sifarişlərə əsasən iş bölgüsü apardı. Bildirdi ki, indi pambıqçılıqda ən məsuliyyətli dövrdür. Suvarılan sahələrə vaxtında kultivasiya çəkmək lazımdır ki, yer aratdan çıxmasın: "Gecikmə səbəbi isə hamınıza yaxşı məlumdur. Bitkinin dibi yumşalmasa, havalanma getmir, bitki inkişafdan qalır. Sovkaya qarşı mübarizəni də ciddi aparmalıyıq. Çalışın dərmanı suyun tərkibinə qatıb yaxşı-yaxşı həll edəsiniz. Sahəyə çiləyərkən elə edin arada boş məsafə qalmasın. Bunlar hamısı mühüm şərtdir. Adamlar zəhmət çəkiblər, hamı istəyir ki, yüksək məhsul götürsün. Bu isə bilavasitə siz mexanizatorlardan asılıdır. Birazdan özüm də sahələri gəzib işlərin gedişinə baxacağam".

Birdən yadına nəsə düşdü: "Rəşid, sən bu gün Fərhad Hüseynovun yerinin kultivasiyasını saat neçəyə kimi çəkib qurtara bilərsən?" Traktora tərəf addımlayan R.Abıyev ayaq saxlayıb: "Saat 4-də", - deyə cavab verdi. "Lap yaxşı. Oranı qurtarandan sonra qonşuluqdakı Allahverənin yerinə keçərsən. Kultivatorun iş orqanlarına yaxşı fikir ver. Çalış, bıçaqlar normal qaydada torpağa işləsin". Rəşid "baş üstə!" deyib traktorun kabinəsinə qalxdı. Mexanizator yoldaşları da kənd yolu ilə müxtəlif istiqamətlərdə yerləşən pambıq sahələrinə getdilər.

Dünyamir Quliyev "P-Aqro"nun ofisindəki otağına qalxıb sənədləri qaydaya saldıqdan sonra baş aqronom Ələsgər Əliyevə baş çəkdi. Hər ikisi MMC-nin sədri Mərdan Cəlilovun yanına gedib bir neçə fermerin sahəsinə birgə baxmaq istədiyini bildirdi. M.Cəlilov "Lap yaxşı, bir baş ağıllıdırsa, ikisi ondan da ağıllıdır" deyib əlavə göstəriş və tapşırıqlar verdi.

Hazırda hər yerdə olduğu kimi, aqrar sahədə də yaxşı mütəxəssisə ehtiyac var. Dünyamir Quliyev belələrindəndir. O, zəhmətkeş ailədə dünyaya göz açıb. Adını Şorsulu kəndinin ən hörmətli ağsaqqallarından biri - babası Cəfər kişi qoyub. Mənasını da belə izah edib ki, biz bu dünyada çox çətinliklər gördük. İkinci Dünya müharibəsi zamanı minlərlə oğullarımız geri qayıtmadı, adamlar aclıq-səfalət içində yaşadılar. Belə günlər bir də geri dönməsin. Dünya sülh, əmin-amanlıq içində yaşasın.

Dünyamir Şorsulu kənd tam orta məktəbini bitirdikdən sonra Salyan Kənd Təsərrüfatı Texnikumuna qəbul olur. Texnikumu əla qiymətlərlə bitirib 1980-ci ildə sənədlərini Gəncədəki Kənd Təsərrüfatı İnstitutuna verir. Qiyabi təhsil ala-ala Şorsulu kəndindəki M.F.Axundov adına kolxozda briqadir, aqronom vəzifələrində çalışır. SSRİ-nin süqutu nəticəsində kolxozların fəaliyyətinə xitam veriləndə bir çoxları kimi o da bir müddət iş yerini itirir. Müəyyən vaxtlarda xırda-para işlərlə məşğul olur. Çox çəkmir, hər şey qaydasına, həyat öz axarına düşür.

Prezident İlham Əliyevin qeyri-neft sektorunun, o cümlədən pambıqçılığın inkişafı ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıq və göstərişlər kənd təsərrüfatında canlanmaya səbəb oldu. Ölkəyə müxtəlif markalı traktorlar, maşın-mexanizmlər alınıb gətirildi. Torpaq mülkiyyətçilərinə, fermerlərə subsidiyaların, güzəştli qaydada mineral gübrələrin verilməsi, məhsulun istehlakçıdan satınalma qiymətinin qaldırılması hər bir kənd adamının torpağa marağını artırdı. Bir vaxtlar kənddən, torpaqdan üz döndərənlər yenidən torpağa üz tutdu, əkin-biçinlə məşğul olmağa başladılar.

"P-Aqro" MMC 2017-ci ildə Salyanın Şorsulu kəndində fəaliyyətə başlayıb. Uzun illərdən bəri şor torpaqdan ibarət olan bir sahəsi mişar daşla hasarlanıb, burada kompüter sistemi ilə işləyən qapan, pambıq tayları üçün xüsusi yerlər, yanğına qarşı su hovuzları, ofis binası tikilib, transformator, işıqlandırma sistemi quraşdırılıb, yol çəkilib. Fəaliyyətə başlayanda 59 nəfər torpaq mülkiyyətçisi ilə müqavilə bağlanıb. 800 hektar sahədən 1041 tondan çox məhsul əldə olunub və məhsuldarlıq 14,3 sentner təşkil edib. Sonrakı ildə onlara yaxından kömək olunduğunu hiss edən kəndlilərin 186 nəfəri 1707 hektarda pambıq əkib-becərmək üçün MMC ilə müqavilə bağlayıb, nəticə yaxşı olub. Sahələrdən 3 min 899 tondan artıq pambıq yığılıb, hər hektarın məhsuldarlığı 22,8 sentnerə yüksəlib.

Bu il isə sahələrdən daha çox məhsul gözlənilir. Bunun üçün yaxşı təməl vardır. İlin əvvəlində 296 nəfər MMC ilə bağlanan müqaviləyə əsasən, 2 min 50 hektara çiyid səpmişdir. Bütün sahələrdə normal çıxış alınmış, sonrakı mərhələdə lazım olan aqrotexniki tədbirlərin hər biri vaxtında və keyfiyyətlə həyata keçirilmişdir. Sahibkarlara iyul ayının ortalarına qədər 500 ton azot, 70 ton amofos gübrəsi, sovka ilə mübarizə üçün 300 kiloqram dərman verilmiş, pambıq sahələrinin alaq otlarından təmizlənməsi, habelə suvarma işlərinin aparılması məqsədilə istehsalçılara 249 min 750 manat həcmində pul vəsaiti paylanmışdır. Bütün bu işlərin vaxtında və keyfiyyətlə icra olunmasında sahə aqronomu D.Quliyevin əməyi çoxdur.

Axşam saat 7 radələridir. Tozlu çöl yolu ilə kəndə tərəf bir maşın gəlir. Bu, sahə aqronomunun maşınıdır. İstəyir ki, idarəyə tez çatıb gün ərzində görülən işləri MMC rəhbərliyi ilə birlikdə müzakirə etsin, sabahkı vəzifələrin müəyyənləşdirilməsində lazım olan təkliflərini versin, ümumi işdə yaxından iştirak etsin.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Dəniz səviyyəsindən 1800 metr yüksəklikdə milli kartof toxumları yetişdirilir

Kartof bitkisinin toxumçuluq işlərinin təşkili, ölkənin toxum idxalından asılılığının azaldılması məqsədilə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda genişmiqyaslı tədqiqat və istehsalat işləri aparılır.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən verilən məlumata görə, institutun Şəmkir Dayaq Məntəqəsi ilə yanaşı, Tovuz rayonunda yerləşən Təcrübə Stansiyasının dəniz səviyyəsindən 1800 metr yüksəklikdə olan Sarıtala ərazisindəki əkin sahələrində milli kartof sortlarının toxumları yetişdirilir. Burada rayonlaşdırılmış "Telman", "Sevinc", "Əmiri-600" sortlarının yüksək reproduksiyalı toxumlarının istehsalı ilə yanaşı, yeni sort nümunələrinin seleksiyası və kolleksiya materiallarının, həmçinin bir sıra xarici ölkələrdən gətirilmiş quraqlığa davamlı sort nümunələrinin, botaniki toxumlardan alınmış xəstəliyə davamlı klonların öyrənilməsi də həyata keçirilir.

Biotexnologiya laboratoriyasında əldə edilmiş virussuz kartof miniyumrularının əkinləri də ilk olaraq burada reallaşdırılıb.

Qeyd edək ki, toxumluq kartofun dağlıq ərazilərdə əkini aprel ayının ikinci yarısında, yığımı isə sentyabr ayının ikinci ongünlüyündən oktyabr ayının birinci ongünlüyünə qədər aparılır.

## Ağcabədidə hibrid qarğıdalı toxumu istehsal edilir

Azərbaycanda ilk dəfə Ağcabədi rayonunda "Adasa 16" adlı hibrid qarğıdalı toxumu istehsalına başlanılıb. "Adasa 16" hibridini əldə etmək məqsədilə 3 hektar ərazidə valideyn xətlər (ana xətt ADK 455 və ata xətt Çukurova 96/25) əkilib.

Qarğıdalı hibridinin yarpaqları dik və genişdir. Dənləri sarı at dişi formasındadır. Yağ həcmi 4,59 faiz, protein həcmi 8,13 faiz, nişasta həcmi isə 61,11 faizdir. Sınaqlarda əldə olunan nəticələrə görə, 1 hektardan 12000-17360 kiloqram məhsul almaq, eləcə də, yaşıl kütlə olaraq birinci səpində bir hektardan 50-78 ton məhsuldarlıq əldə etmək mümkündür. Bu da heyvandarlıq sahəsində istifadə olunan lazımlı silos kütləsinin daha az hektar sahədən təmin olunmasına gətirib cıxaracaq.

## Sabirabadın bostan sahələrində bol məhsul var

Sabirabadda bostan məhsulları (qarpız, yemiş) yığımının qızğın çağıdır. Məhsul istehsalçıları əkdikləri bostan sahələrindən bu mövsümdə indiyədək 13 min 494 ton məhsul toplayıblar.

Rayon Statistika İdarəsinə istinadən AZƏRTAC xəbər verir ki, sabirabadlı əkinçilər bu mövsüm 3 min 950 hektar sahədə bostan bitkiləri əkiblər. Bunun da 3 min 300 hektarını qarpız, 650 hektarını isə yemiş sahəsi təşkil edir. Torpaq mülkiyyətçiləri əkdikləri sahələrə aqrotexniki qaydada qulluq etdiklərindən plantasiyalarda gözlənildiyindən də çox məhsul yetişib. Xeyli vaxtdır ki, fermerlər becərdikləri sahələrin məhsulunu toplayırlar. İndiyədək bostançılar 550 hektar əkin sahəsindən 8 min 425 ton qarpız, 5 min 65 ton isə yemiş tədarük ediblər. Qarpız sahələrinin hər hektarının məhsuldarlığı 263,3, yemiş sahələrininki isə 220,4 ton olub.

Fermerlər yetişdirdikləri məhsulun yığımını itkiyə yol vermədən başa çatdırmaq üçün var qüvvə ilə çalışırlar. Tədarük olunan məhsul əsasən Bakı, Sumqayıt və digər iri şəhərlərin bazarlarına göndərilir.

# Heyvandarlığın inkişafında süni mayalanma əsas şərtlərdən sayılır

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması ölkədə aqrar siyasətin mühüm tərkib hissəsidir. Son illər bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilmiş, müsbət nəticələr qazanılmışdır. Bərdə rayonunda da bu sahədə bir sıra addımlar atılır. Hazırda rayonun təsərrüfatlarında xarici ölkələrdən lizinq yolu ilə alınıb, gətirilmiş məhsuldar cinsli mal-qaranın sayı 4,151 başdır.



Rayonun Mehdili kəndi ərazisində yerləşən "Qarabağ" Aqrar Sənaye Kompleksi mütərəqqi texnologiya əsasında qurulmuşdur. Güclü maddi-texniki bazaya malik təsərrüfatda ağır əl əməyi tələb edən bütün proseslər mexanikləşdirilmişdir. Təsərrüfat heyvandarlıq məhsullarının intensiv yolla artırılmasında gerçək bir qabaqcıllıq nümunəsi göstərir. Burada yüksək məhsuldarlığa malik cins düyələr yetişdirilib ayrı-ayrı fiziki şəxslərə, fermer təsərrüfatlarına satılır. Son vaxtlar Salyan rayonunun fermer təsərrüfatları "Qarabağ" Aqrar Sənaye Kompleksindən 297 baş damazlıq cins düyə almışlar.

Türkmən kəndi ərazisində yerləşən "Çiçək" fermer təsərrüfatı da geniş imkanlara malikdir. Hazırda təsərrüfatda 1035 baş cins mal-qara bəslənilir. Keçən il Şəmkir fermerlərinə 50 baş boğaz damazlıq düyə satan "təsərrüfat bu il nailiyyəti daha da artırmaq əzmindədir. Mehdixanlı kəndi ərazisindəki "Nüsrət aqro" MMC, Çələbilər kəndində yerləşən "Sani" cins heyvandarlıq təsərrüfatlarında da işlər zoobaytar qaydaları əsasında aparılır.

Kənd Təsərrüfatı Nazirliyinin yerdəki nümayəndəsi Bərdə rayonu Dövlət Aqrar İnkişaf Mərkəzi aqrar sektorun digər sahələri ilə yanaşı, heyvandarlığın inkişafına da böyük önəm verir, bu sahədə tələb olunan zəruri təşkilat-təsərrüfat tədbirlərini uğurla reallaşdırır. Heyvandarlığın inkişafında mütərəqqi yol kimi süni mayalanma işinin səmərəli təşkilinə xüsusi diqqət yetirilir. Ötən təsərrüfat ilində süni mayalanma yolu ilə 4570 baş cins buzov əldə edilmişdir. Cari ilin birinci yarısında isə süni mayalanma yolu ilə 2349 baş cins buzov əldə olunmuşdur.

Süni mayalanma yolu ilə alınan hər buzov üçün mal-qara sahibinə dövlət tərəfindən 100 manat subsidiya ödənilməsi kəndlidə maddi stimul yaradır. Keçən il rayon üzrə süni mayalanma yolu ilə alınan buzovlar üçün ümumilikdə 300 min manatdan çox subsidiya verilmişdir. Cari ilin birinci yarısında bu rəqəm 135 min manat olmuşdur.

Rayon ərazisindəki təsərrüfatlarda süni mayalanma işinin aparılması ilə 13 mütəxəssis məşğuldur. Toxumlar Göygöl rayonu ərazisindəki Respublika Toxumçuluq Mərkəzindən götürülür. Cimmental, holştinfriz, aberdin, şarole cinslərindən olan toxumlar yüksək keyfiyyətə malikdir və onlardan istifadə səmərəli nəticələr verir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsində müəyyən edilən hədəflərə çatmaq üçün Bərdə rayonunun kənd əməkçiləri inamla çalışırlar. Məqsəd ərzaq bolluğu yaratmaq, ölkə iqtisadiyyatının daha da güclənməsinə sanballı töhfələr verməkdir.

***Vüqar İSMAYILOV, Bərdə rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin rəisi***

# Bu il də bol tütün yetişdirilmişdir

İqtisadi əhəmiyyətinə görə Azərbaycanda ikinci texniki bitki sayılan tütün hələ ötən əsrin 70-ci illərində respublikamızda kənd təsərrüfatının əsas sahələrindən biri olub. Lakin 1990-cı illərdə digər sahələr kimi tütünçülük də tənəzzülə uğramış, bu gəlirli sahəyə maraq azalmış, təcrübəli tütünçülərin əli işdən soyumuşdu.

Yalnız 3 il əvvəl dövlət başçısının təşəbbüsü ilə bu sahə yenidən dirçəldilmiş və kənd təsərrüfatının ənənəvi sahələrindən biri kimi inkişaf etdirilməyə başlanılmışdır. Bunun üçün fermerlərə güzəştli kreditlər verilmiş, aqrolizinq xidmətləri göstərilmişdir. Nəticədə əkin sahələri genişləndirilmiş, fermerlər arasında bu sahəyə maraq xeyli artmışdır.



Goranboyda tütünçülüklə əsasən Zeyvə, Yenikənd, Şəfəq, Qarbucaq, Todan və Qaraçinar kəndlərinin sakinləri məşğul olurlar. 2016-cı ildə ilk dəfə rayon üzrə 6 hektar sahədə tütün əkən fermerlər orta hesabla hər hektardan 32,5 sentner məhsul götürmüşlər. Əldə etdikləri qazancdan ruhlanan torpaq sahibləri əkin sahələrini ildən-ilə genişləndirərək 8 hektara çatdırmışlar. İstehsal olunan məhsul yüksək keyfiyyətlə Şəkidə "İntertabakko" MMC-yə təhvil verilmişdir.

4 ildir ki, tütün əkən və bol məhsul əldə edən Zeyvə kəndinin sakini Pərviz Nəsirov deyir ki, kənd təsərrüfatında gəlirli sahələrdən biri tütünçülükdür: "Lakin onun mütərəqqi üsullarla becərilməsi və qurudulması üçün yaxşı şərait olmalıdır. Doğrudur, birinci il bu sahədə xeyli çətinliyimiz oldu. Ancaq sonrakı illərdə rayon rəhbərliyinin köməyi ilə bu şəraiti yarada bildik. Mən öz həyətimdə tütün qurutmaq üçün talvar düzəltdim. İndi tütünü qurudulmuş halda təhvil verirəm ki, bu da gəlirimi xeyli artırır".

Şəfəq kəndinin sakini Şəmməd Yaqubov da ilk illər yüksək məhsuldarlığa nail olmayıb - 1 hektardan 800 kiloqram tütün yığıb. Lakin illər keçdikcə tütünçülükdə təcrübə qazanıb. Əsas diqqətini məhsuldar şitil sortlarına yönəldib. Türkiyədən gətirdiy "Trabzon" sortu əkən Şəmməd Yaqubov bu günlər birinci dərimə başlayıb. Yığılmış tütünü öz ərazisində düzəltdiyi meydançada qurudur. Hətta məhsulun saxlanması üçün anbar da inşa etdirib. Yığıma həmkəndlilərini cəlb edən fermer bu il yüksək məhsuldarlığa nail olacağına əmindir.

Yenikənd kəndinin sakini Zahid İsmayılov da dördüncü ildir ki, tütünçülüklə məşğul olur. Söhbət zamanı Zahid dedi ki, tütünçülük zəhmət tələb etsə də, gəlirli sahədir. Məhz buna görə də əkin sahəsini artıraraq 1,2 hektara çatdırıb. Təcrübəsi artdıqca, məhsuldarlıq da yüksəlir. Keçən il 2 ton məhsul təhvil verən tütünçü bu il həmin rəqəmi 2,5 tona çatdırmaq istəyir.

***"Azərbaycan"***

## Biləsuvarda tərəvəz sahələrindən 4 min tondan çox məhsul toplanılıb

Biləsuvarda tərəvəz yığımının qızğın çağıdır. Yarım ildə məhsul istehsalçıları becərdikləri tərəvəz sahəsindən 4 min 253 ton məhsul tədarük ediblər. Yığılan tərəvəz əsasən Bakı və Sumqayıt şəhərlərindəki bazar və ticarət şəbəkələrinə göndərilir.

Rayon Statistika İdarəsindən bildiriblər ki, biləsuvarlı əkinçilər cari ilin məhsulu üçün erkən yazda 1449 hektar sahədə tərəvəz əkiblər. Bu da ötən ildəkindən 198 hektar çoxdur. Xeyli vaxtdır ki, əkinçilər becərdikləri tərəvəz sahələrinin məhsulunu toplayırlar. İlin ötən altı ayında 464 hektar sahədə yığım aparılıb və 1449 ton məhsul tədarük olunub. Yığılan məhsulun 1253 tonunu xiyar, 207 tonunu pomidor, 132 tonunu badımcan, 9 tonunu bibər, 238 tonunu sarımsaq, 520 tonunu soğan, 1476 tonunu yaşıl noxud, 334 tonunu isə digər tərəvəz məhsulları təşkil edib. Tərəvəz yığımında rayonun Xırmandalı, Günəşli, Ağayrı, Ağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə fəaliyyət göstərən fermerlər xüsusilə fərqlənirlər.

## Qax rayonunun təsərrüfatlarında 712 hektarda təkrar əkinlər aparılıb

Payızlıq dənlilərin səpini üçün indiyədək Qax rayonunun təsərrüfatlarında 5800 hektar sahədə yay şumu çıxarılıb və bu iş davam etdirilir. Cari mövsümdə rayonda payızlıq taxıl əkini sahələrinin 13 min hektardan çox olacağı proqnozlaşdırılır.



Bu barədə AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, taxıl biçini kampaniyası başa çatdıqdan sonra təsərrüfatlarda, eyni zamanda, 712 hektar sahədə təkrar qarğıdalı əkini də aparılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 293 hektar çoxdur. Məlumata görə, təsərrüfatlarda dən və yaşıl yem istehsalının artırılmasında əsas ehtiyat mənbələrindən biri də təkrar əkinlərin tətbiq edilməsidir.

## Ötən həftə 19 rayonda 284 fermer təlimlərə cəlb olunub

Bu ilin yanvar-iyul ayları ərzində Kənd Təsərrüfatı Nazirliyinin Təhsil və təlim şöbəsi tərəfindən respublikanın 60 rayonunda 1070 təlim keçirilib. Təlimlərdə 19642 fermer və məhsul istehsalçısı iştirak edib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, ötən həftə ərzində respublikanın 19 müxtəlif rayonunda 20 təlim keçirilib. Təlimlərə, ümumilikdə 284 fermer və məhsul istehsalçısı cəlb olunub.

Təlimlər Aqrar Xidmətlər Agentliyi, Əkinçilik Elmi-Tədqiqat İnstitutu, Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Gəncə, Lənkəran və Salyan Regional Aqrar Elm və İnnovasiya mərkəzlərinin mütəxəssisləri tərəfindən keçirilib.

# Milli Ordunun eskadron komandiri

1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusu yarananda çar Rusiyasının ordu birləşmələrində xidmətdə olan onlarca azərbaycanlı əsgər və zabit doğma vətəninə qayıdıb öz torpağında qulluq etməyi şərəf və vətəndaşlıq borcu hesab edirdilər.



Təəssüf ki, bu cümhuriyyət hökuməti 23 ay yaşaya bildi. 1920-ci ilin aprelində Azərbaycan XI ordu tərəfindən işğal olunanda Milli Ordunun əsgər və zabitlərinin taleyi AXC-nin taleyi kimi ağır oldu. Onların çoxu məcburiyyət qarşısında qonşu İran və Türkiyəyə, habelə Avropa ölkələrinə mühacirət etməli oldu. Belə mühacir - hərbçilərdən biri də cümhuriyyət ordusunda eskadron komandiri kimi ləyaqətlə xidmət etmiş Vəli bəy Yadigarovdur.

O, 1897-ci ildə Borçalının Təkəli kəndində zadəgan ailəsində anadan olmuşdu. Atasının istəyi ilə Tiflis Hərbi Gimnaziyasında oxumuş, əmiləri general İsrafil bəy və Həsən bəy Yadigarovlar kimi şöhrətli hərbçi olmaq arzusu ilə yaşamışdı. Ona görə də bu gimnaziyanın tələbəsi olmaqdan böyük qürur duyur, dərslərdə və təlimlərdə nümunəvi davranışı, bacarığı və qabiliyyəti ilə fərqlənirdi.

Gimnaziyanı müvəffəqiyyətlə bitirən Vəli bəy 1916-cı ildən Rusiyanın Əlahiddə Qafqaz Korpusunun süvari hissələrində xidmətə başlayır. Birinci Dünya müharibəsini Qafqaz cəbhəsində qarşılayan gənc kornet məşhur Brusilov hücumunda iştirak edir. Sonra bir müddət 1-ci Dağıstan süvari alayında xidmətdə olur, daha sonra Artilleriya Zabit məktəbinə göndərilir. Lakin bu ərəfədə iğtişaşlar, qiyamlar, üsyanlar girdabında çalxalanan Rusiyada inqilab başlayır. Peterburqda bolşeviklərin çevrilişi nəticəsində ordu iflic vəziyyətinə düşür. Üstəlik, yeni hökumət bütün Rusiya ərazisində postlar qurur, keçmiş çar zabitlərini axtarır, onları sorğu-sualsız güllələyirdilər.

Xalq Cümhuriyyətinin yaradılmasını sevinclə qarşılayan Vəli bəy təhlükədən çəkinməyərək 1918-ci ilin sentyabrında Azərbaycana gəlir və dərhal Milli Ordunun korpus komandirinin yanında eskadron komandiri kimi xidmətə başlayır. Bu zaman Yadigarovlar nəslindən nə az, nə çox Vəli bəylə birlikdə 8 nəfər - poruçik Nadir bəy, kornet Rəhim bəy, praporşik Adil bəy, poruçik Abuzər bəy, İkinci Qarabağ süvari alayında üçüncü bölüyün komandiri, ştab-rotmistr Məmməd bəy, İkinci Qarabağ süvari alayında ikinci bölüyün rotmistri Danial bəy və rəis müavini general-mayor Davud bəy Yadigarovlar, özü də təhsilli, təcrübəli və zabit rütbəsində Milli Orduda xidmətdə idilər.

Vəli bəy 3-cü Şəki süvari alayının eskadron komandiri idi. 1920-ci ilin martında erməni-daşnak birləşmələri Əsgərana hücuma keçəndə onun rəhbərlik etdiyi süvari eskadron Qarabağda azərbaycanlıların kütləvi qırğınına və etnik təmizləməyə dəstək verən daşnak-quldur birləşmələrinə ağır zərbələr endirir, uğurlu hücum əməliyyatları ilə fərqlənir.

3-cü Şəki süvari alayının komandiri, polkovnik Tonkiyev martın 26-da AXC-nin Qarabağ ərazi qoşunlarının komandanı, general-mayor Həbib bəy Səlimova göndərdiyi məktubda yazırdı: "Bu gün, martın 26-da artilleriya və tüfəng atəşi hazırlığından sonra Çaylı və Bürcü kəndləri azad olunub. Ermənilər Çaylıdan qərbə - dağların şərq ətəklərinə çəkilib. Bir neçə quldur öldürülüb. Bizim tərəfdən isə bir neçə əsgər yaralanıb. Düşmənin çoxsaylı süvari dəstəsini vahimə içində qaçmağa məcbur etmiş 1-ci yüzlüyün korneti Vəli bəy Yadigarovun çevik süvarilərinin hücumunu xüsusi qeyd etmək istəyirəm".

Vəli bəyin böyük qardaşı Davud bəy də hərbçi olmuşdu. 1903-cü ildə Peterburq yaxınlığındakı Pay korpusunu kornet rütbəsində bitirən D.Yadigarov 1918-ci ildə AXC ordusu yarananda böyük sevgi ilə Milli Orduda xidmətdə olmağı özünə şərəf bilmişdi. O, 1919-cü il avqust-noyabr aylarında Zəngəzur uğrunda gedən döyüşlərdə Cavad bəy Şıxlinskinin Birinci piyada diviziyasında Birinci dəstənin komandiri olmuşdur. Dığ, Goranzur, Xanazax, Abdallar və başqa kəndlər uğrunda daşnak hərbi qüvvələrinə qarşı döyüşlərdə böyük şücaətlər göstərmişdir. Bundan az sonra 1919-cu ilin oktyabrında Qarabağ və Zəngəzur bölgəsində terrorçu daşnak birləşmələrinə qarşı döyüşlərdə göstərdiyi igidliyə görə hərbi nazir Səməd bəy Mehmandarovun əmri ilə general-mayor rütbəsinə layiq görülmüşdü.

1920-ci il 28 aprel çevrilişindən sonra taleyi məlum olmamışdı.

1920-ci ilin mayında Azərbaycan XI ordu tərəfindən işğal ediləndə əsgər və zabitlərin böyük əksəriyyəti çətin seçim qarşısında qalmışdılar. General Mehmandarov "Vətəndən ayrılmağa heç bir əsasım yoxdur" deyərək Azərbaycanda yaşamağı qərara alır. Bəzi hərbçilər qonşu İrana, Türkiyəyə, habelə Avropa ölkələrinə mühacirət etməyi, bəziləri son nəfəslərinə kimi bolşeviklərə qarşı mübarizə aparacaqlarını qərara alırlar. Vəli bəy Yadigarov rəhbərlik etdiyi dəstə ilə döyüşə-döyüşə Gürcüstan ərazisinə keçir.

Hərbçi-jurnalist, ehtiyatda olan polkovnik-leytenant Şəmistan Nəzirli yazır ki, Gürcüstan da bolşeviklərin işğalına məruz qaldıqdan sonra Vəli bəy Türkiyəyə mühacirət edir. Burada Atatürkün ordusunda azadlıq yürüşünün iştirakçısı olur. Vəli bəy eşidir ki, Azərbaycanda, eləcə də Gürcüstanda ailə üzvləri, qohum-əqrəbası bəy və bəy əsilli olduqlarına və milli dövlət quruculuğunda fəal iştirak etdiklərinə görə yeni quruluşun məmurları tərəfindən möhkəm incidilir, təzyiqlərə məruz qalırlar, onlara işgəncələr verilir. Hətta həbs ediləni, sürgünə göndərileni də var. Milli Orduda xidmətlərinə görə hətta bəzi hərbçi qohumları İnqilabi Hökumətin əsgərləri tərəfindən həbs edilib, ÇK-nın qərarı ilə repressiya olunublar...

Vəli bəy azərbaycanlı əqidə yoldaşları ilə birlikdə Polşaya gedir. Vəli bəyin Polşaya mühacirət etməsinə səbəb həm də onun anası, şahzadə Olqa Russiya-Korçibaşevanın polşalı olması idi. Vəli bəy tabeliyində olan hissənin 20-dən çox azərbaycanlı əsgər və zabiti ilə birlikdə Polşa ordusu sıralarına qəbul edilir. Qruzdində Süvari Məktəbini və Varşava Ali Hərbi Məktəbini bitirdikdən sonra yeddinci süvari polkunun komandir müavini təyin edilir. Az müddətdən sonra milliyyətcə polyak olan qızla evlənir. Rotmistr Vəli bəy Yadigar 1933-cü ildə Varşavada "Mustafa Axmatoviç adına Tatar-Ulan Alayının hərbi tarixi oçerki" adlı maraqlı bir kitab yazır.

O, 1939-cu il sentyabrın 11-də təşkil olunmuş Mazovetsk süvari briqadasına qərargah rəisi təyin edilir, Polşanın işğalından sonra Armiya Krayovanın tərkibinə daxil olan "Jelen" polkunun komandiri kimi Varşava üsyanında (1944) iştirak edir.

Vəli bəy 1945-ci ildə Polşaya sovet qoşunlarının yeridilməsi ilə barışa bilmir və ikinci vətənini də itirir. Vyana-İtaliya-Tilstok düşərgəsi marşrutu ilə Londona gedir, yenidən mühacir həyatı yaşayır. Polşa və Qafqaz mühacirləri cəmiyyətlərinin fəal üzvünə çevrilir, Azərbaycanın "İgid nişanı" ordeni, Polşanın müxtəlif statuslu dörd ordeni ilə təltif edilir.

Vəli bəy Londonda çox yaşaya bilmir, öz ərizəsi ilə 1949-cu ildə istefaya çıxır. Ailəsi ilə birlikdə Argentinanın paytaxtı Buenos-Ayresə köçür...

Azərbaycanlı hərbçi 1971-ci il dekabrın 13-də, üçüncü infarktdan sonra vəfat edir.

Vəli bəy Yadigarın yeganə qız övladı Züleyxa xanım Yadigar-Kalinoskaya İspaniyada yaşayırdı. Vəli bəy ömrünün son günlərində qızına vəsiyyət etmişdi ki, onu müsəlman adət-ənənələrinə uyğun dəfn etsinlər. Qızı atasının vəsiyyətini təxminən 20 ildən sonra - Polşada sosializm rejimi çökdükdən sonra - 1990-cı ildə həyata keçirə bilir. Vəli bəy Yadigarın və həyat yoldaşının nəşi Polşaya gətirilir, Varşavada "Tatar-Müsəlman" qəbiristanlığında fəxri qarovulun müşayiətilə müsəlman dini adət-ənənələrinə uyğun təkrar dəfn edilir. Dəfn marşı çalınır, cənazə üzərində müsəlman ayini oxunur.

Vəli bəy Yadigarın məzarının qarşısında bir azərbaycanlı məzarı da var. Bu, Vəli bəyin əmisi general-polkovnik İsrafil bəy Yadigarın məzarıdır. O da bolşevik repressiyasının təzyiqləri altında vətənindən uzaqlaşdırılaraq Polşada mühacir həyatı yaşamışdır. Polşa ordusunda xidmət etmiş, podpolkovnik rütbəsinə kimi yüksəlmişdir.

Azərbaycanın dövlətçilik tarixində xidmətləri olan Yadigarovların xatirəsi xalqımız tərəfindən daim ehtiramla anılır. Polşaya gedən azərbaycanlılar mütləq Varşava şəhərinin mərkəzində Povonzki qəbiristanlığı ilə yanaşı olan "Tatar-müsəlman" məzarlığına gedir, mühacir-hərbçilərin məzarlarını ziyarət edirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Eyni xislətlilər

## Erməni terrorçu-daşnak qüvvələri faşizmin xidmətində

XX əsrin 30-cu illərinin sonunda dünya iqtisadi böhranının dərinləşməsi fonunda A.Hitler Almaniyada hakimiyyətə gəldi. Bununla da erməni liderləri onlarla işbirliyi quraraq SSRİ-yə qarşı faşistlərlə əməkdaşlığa başladılar. SSRİ-ni sevməyən və Türkiyə Cümhuriyyətinə düşmən münasibət bəsləyən ermənilər Hitlerin sadiq quluna çevrilmək üçün dəridən-qabıqdan çıxırdılar. Bundan istifadə edən alman-faşist gestaposunun şefi Henrix Müller 1938-ci ilin oktyabrında qondarma mühəndis Krauze adıyla Bakıya gələrək "Daşnaksütyun" partiyasının üzvlərini "beşinci kolona" cəlb edir. SS qruppenfüreri H.Müllerin "…Bakıya gəlişindən sonra erməni milli təşkilatı "Daşnaksütyun"un casusları məlumatları faşist Almaniyasına ötürməyə başlayırlar.



**Müller Henrix** (28.04.1900, Münhen-may 1945, Berlin) gizli dövlət polisinin (gestaponun) rəhbəri, SS qruppenfüreri və polis general-leytenantı olmuşdur.

H.Müller 1917-ci il iyun ayının 11-də könüllü surətdə aviasiya qrupuna daxil olmuş, 1918-ci ilin aprelindən Qərb cəbhəsində döyüşmüşdür. Döyüşlərdə fərqləndiyi üçün 1-ci və 2-ci dərəcəli "Dəmir xaç"la təltif olunmuşdur. 1919-cu ildə ordudan tərxis olunan H.Müller dekabrın 1-də Münhendə polisdə xidmətə daxil olmuş, 1920-ci il oktyabrın 10-da Münhen polis idarəsində təhlükəsizlik xidmətinə keçirilmişdir.

Müller tezliklə gestapoda karyera qura bilmiş, 1934-cü il aprelin 20-də SS-ə daxil olmuş və SS şturmfüreri rütbəsində SD Baş İdarəsində kommunistlər, marksistlər, həmkarlar təşkilatları və digər müxalifət qrupları ilə mübarizə aparmış, 1935-ci ildə Almaniya Kommunist Partiyası üzvlərinin kütləvi həbsinə rəhbərlik etmişdir.

H.Müller 1936-cı il iyulun 1-də gestaponun Bavariya siyasi polisinin 2-ci şöbəsinə rəis təyin olunmuş, Bavariya siyasi polisi ilə SD-nin birləşməsindən sonra gestaponun rəhbəri olmuşdur.

H.Müller 1939-cu ildə Hitlerin Polşaya müharibə elan etməsi üçün Leyvitsdə radiostansiyaya hücumun təşkilinə, həmçinin Hitlerə 20 iyul 1944-cü il sui-qəsdinin iflasa uğramasından sonra genişmiqyaslı həbslərə də rəhbərlik etmişdir.

Məlumatlara görə, Müller İmperiya dəftərxanasında intihar etmişdir. V.Şelenberqin belə bir versiyası da var ki, Müller hələ müharibə dövründə K.Şolts vasitəsilə sovet kəşfiyyatı ilə əlaqə yaratmış, müharibədən sonra SSRİ-də gizlənmişdir. 1958-ci ildə Müllerin dəfn edildiyi güman olunan yerdə abidəsi qoyulmuşdur. Ancaq 1963-cü ilin sentyabrında cəsədin ekshumasiyası keçirilərkən Müller olduğu təsdiq olunmamışdır. (Залесский К.А. Кто есть кто во Второй Мировой войне Германия и союзники /К.А.Залесский. М.: Вече, 2010, 464 с., с. 110)

Əslində, ermənilərin Türkiyə dövlətinə olan düşmən münasibəti faşistlərin ermənilərlə əlaqə yaratmasının əsas səbəbi idi. Hitler Almaniyasının siyasi əlaqələndiricisi, siyasətçi Alfred Rozenberq yazmışdı: "Almaniyanın Qafqazda siyasətinin, həmçinin onların cənub qonşularının məqsədi siyasi və hərbi arenada hakimiyyətə keçməkdir "(Эдуард Абрамян. Кавказцы в Абвере. М., 2006, с. 43). İşğal olunacaq ərazilərin Alfred Rozenberq tərəfindən tərtib olunmuş yeni xəritəsi Türkiyə dövlətinin ərazilərini də əhatə edirdi. Faşistlər ermənilərin türklərə olan nifrətini bildikləri üçün bundan ağılla istifadə etməyə səy göstərirdilər. Bu səbəbdən də Reyxin nümayəndələri ermənilərə açıq müraciət ünvanlayaraq birgə hərəkət üçün imkanları haqqında dəqiq məlumat verməyi, sonra arzularını bildirməyi tələb etmişlər.

1941-ci ildə Hitler Almaniyası SSRİ-yə qarşı müharibəyə başlayanda ermənilər məkrli planlarını həyata keçirmək üçün fürsət yarandığını fikirləşdilər. Onlar "gələcək gün üçün" *1919-cu ildə daşnak hökumətinin başçısı olmuş Xatisyanı tapıb Adolf Hitlerə təqdim etdilər* və ermənilərin almanların sadiq dostu, ədalət uğrunda mübarizə aparan xalq olduqlarını bildirdilər.



**Kimdir Xatisyan?**

Xatisov (Xatisyan) Aleksandr İvanoviç erməni çinovniki ailəsində dünyaya gəlmiş, 1891-ci ildə Tiflis gimnaziyasını bitirmiş, Moskva və Xarkov universitetlərinin tibb fakültələrində oxumuş, 1897-ci ildə universiteti bitirərək həkim ixtisası almışdır. 1898-ci ildə təhsilini davam etdirmək üçün xaricə gedən Xatisyan İtaliya, Fransa və Almaniyada olmuş, Paris və Berlində bir neçə kitab və kitabçalarını nəşr etdirmişdir.

A.İ.Xatisyan 1900-cü ildə Tiflisə qayıtmış, 1905-ci il inqilabında iştirak etmiş, "Daşnaksütyun" partiyasına üzv olmuşdur. 1914-cü ildə çar Rusiyasında daşnaklara amnistiya elan olunduğu üçün A.İ.Xatisyan Qafqaz ordusunun baş komandanı Vorontsov-Daşkovun, Tiflisin erməni yepiskopu Ter-Movsesyan və həkim Akop Zavriev isə erməni könüllü drujinalarının təşkili məsələləri üzrə məsləhətçi olmuşlar. A.İ.Xatisyan ətrafına daşnak kadrları cəlb edərək erməni qaçqınlarına kömək göstərmişdir.

A.Xatisyan fevral inqilabından sonra 1917-ci ilin oktyabrınadək Erməni Milli Bürosuna, 1917-ci ilin mart-aprelində erməni siyasi partiyalarının müşavirəsinə sədrlik etmiş, 1917-ci ilin iyununda Tiflisdə keçirilən Cənubi Qafqaz kəndlilərinin qurultayında, 1917-ci ilin sentyabr-oktyabar aylarında çağırılan Erməni Milli Müşavirəsində (Şərq ermənilərinin qurultayında) və Erməni Milli Şurasının yaradılmasında iştirak etmiş, 1918-ci ilin aprelində Cənubi Qafqaz Demokratik Federativ Respublikası yarananda maliyyə və ərzaq naziri, həmçinin Cənubi Qafqaz Seymi hökumətinin himayəetmə naziri olmuşdur. O, 1919-cu ilin oktyabrında Ararat Respublikasının xarici işlər naziri, 1919-cu ilin avqustundan 1920-ci ilin may ayına kimi Ararat Respublikasının baş naziri olmuşdur.

A.Xatisyan mühacirətdə Parisdə yaşamışdır. Erməni və rus ictimai təşkilatlarının işində və 1923-cü ildə çağırılan Lozanna konfransında iştirak edən A.Xatisyan Millətlər Liqasında erməni xalqının maraqlarının təmsilçisi olmuşdur. Masson təşkilatı "Şimal ulduzu" (1924-1931), "Azad Rusiya" (1931-1937) şöbələrinin üzvü olan A.Xatisyan 1940-cı ildə Hitler qoşunları Fransanı işğal edəndə Portuqaliyaya gedərək Portda yaşamış, 1944-cü ildə almanlarla əməkdaşlıq etməsi barədə donos əsasında yerli hakimiyyət orqanları tərəfindən həbs olunsa da, himayədarlarının köməyi sayəsində "sübutlar yetərli olmadığından" sərbəst buraxılmışdır (https://ru.wikiprdia/orqlwiki/).

Qeyd olunduğu kimi, müharibə başlayanda faşistlərin qalib gələcəyini düşünən ermənilər yaltaqlıqla III Reyx rəhbərliyinə yol tapmağa cəhd etdilər. Bu yaltaqlanma prosesində general Dro (Drastamat Kanayan) xüsusi fərqlənirdi. Bu həmin Dro idi ki, 1918-1920-ci illərdə Zəngəzurda və Naxçıvan diyarında silahsız azərbaycanlılara hücum etmiş, əliyalın əhalini qətlə yetirmişdir.

Erməni tarixçisi Eduard Abramyan "Кафказцы в Абвере" kitabında etiraf edir ki, erməni məsələsi Hitler Almaniyası üçün xarici işğal siyasətlərini reallaşdırmaq vasitəsi olmuşdur. Buna görə də Reyx ermənilərlə əlaqəyə dair Almaniyada olan erməni mühacirlərlə yığıncaqlar keçirir, onlardan SSRİ-yə və Türkiyə dövlətinə qarşı istifadə etməyi planlaşdırırdı. Berlin ermənilərə SSRİ-yə qarşı müqəddəs müharibəyə hazırlaşmağı tövsiyə edirdi.

Daşnak hökuməti dağıldıqdan sonra gizlənən A.Xatisyan 1942-ci ildə Hitlerin xidmətinə girir. Uzun illər Ermənistan SSR-də müxtəlif rəhbər vəzifələrdə işləmiş mərhum T.Musayev yazır ki, "Hitler onu (Xatisyanı-M.Ə.) Qafqaza - Rostov vilayətində ermənilərin çoxluq təşkil etdiyi Armavir şəhərinə göndərir ki, erməniləri səfərbər edib Sovet dövlətinin məğlub olmasına yaxından kömək etsin, Qafqazı Hitler zəbt edən kimi Zaqafqaziya üzrə qubernator olub, Zaqafqaziyada qalıb... azərbaycanlıların kökünü kəsə bilsin.

Daşnak hökuməti başçısı olmuş Xatisyanın Rostov vilayətinin ən çox erməni yaşayan Armavir şəhərinə gətirilib orada yerləşdirilməsi və onun planları barədə 1942-ci il iyul-avqust aylarında "Pravda" qəzeti öz nömrələrinin birində karikatura vermişdir. Karikaturada Hitler A.Xatisyanı maşa ilə zibil vedrəsindən çıxarıb ona vədlər edir". *(Talıb Musayev. Ermənilər və faciələrimiz. (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) Bakı, 2008, s.214-215)*

Faşistlərin qulbeçələri olan Dro Kanayan II Dünya müharibəsi zamanı Qaregin Njde ilə birlikdə faşistlərin tərəfində döyüşür və erməni hərbi birləşmələrinin təşkilində fəal iştirak edir. Dro kəşfiyyat və təxribat məqsədləri üçün Simferopolda yerləşən "Dromedar" təşkilatı tərəfindən koordinasiya edilən erməni qrupları yaradır və rəhbərlik edir.



Quldur başçısı Dro ləqəbi ilə tanınan cinayətkar general **Drastamat Kanayan Martirosoviç** 1884-cü il mayın 31-də İrəvan quberniyasının Sürməli qəzasında dünyaya gəlmişdir. Dro gimnaziyada təhsilini bitirdikdən sonra Pyatiqorsk şəhərində hərbi təhsil almış, 1903-cü ildə "Daşnaksütyun" partiyasına daxil olmuşdur. 1905-ci ildə Bakıda başlanan erməni-azərbaycanlı qırğınında Bakı qubernatoru Nakaşidzeyə qarşı sui-qəsddə iştirak etmiş və onun faytonuna bomba atmışdır. Partlayış nəticəsində qubernator həlak olmuşdur. Bundan sonra Qafqaza qaçan Kanayan-Dro İranda və Osmanlı dövlətində yaşamış, Şərqi Anadoludakı erməni dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olmuşdur.

Dro I Dünya müharibəsində Rusiya İmperiyasının ordusunda yerləşdirilən Erməni Könüllü Alayında xidmət etmişdir. Qars və Ərzurum cəbhələrində osmanlılara qarşı vuruşan Dro 1918-ci ildə Ararat Respublikasında Müdafiə Nazirliyinə gətirilmişdir. Dro 1918-ci ildə dəstələri ilə İğdır üzərinə hücum edərkən Mələkli-Daşburun arasında İrəvan gimnaziyasından və İğdırdan uşaqlıq dostu olan İğdır Milli Cümhuriyyəti rəhbəri Əli Əkbər Tufanın komandanlığındakı türk milis dəstələri tərəfindən məğlub edilmişdir. Əsir düşməkdən son anda qurtulan Dro bölgəyə gəlmiş 6 min nəfərlik ingilis dəstələrindən silah alaraq 1920-ci il oktyabrın 28-də yenidən hücum edir.

Dro 1920-ci il noyabr ayının 30-da Gümrü müqaviləsini imzalayan erməni heyətində olmuşdur. 1920-ci il dekabrın 1-də Sovet Rusiyası Ararat Respublikasını işğal edəndə İrana qaçan Dro sonra Almaniyaya getmişdir.

General Drastamat Kanayan (Dro) 15 dekabr 1942-ci ildə faşistlərin nəzarətində Erməni Milli Komitəsini qurmuşdur. Bu komitə II Dünya müharibəsi zamanı ermənilərin SSRİ əleyhdarı və alman tərəfdarı təbliğatının mərkəzinə çevrilmişdir.

1944-cü ilin fevralında Rozenberqin əmri ilə Birləşmiş Erməni Qərargahı yaradılır. 1943-cü il aprelin sonunda erməni hərbi qrupu müstəqil status qazanır. Qrupa Dronun köməkçisi Kuro (Nikolay Tarxanyan) rəhbər təyin edilir, qrupun qərargah rəisi Tiqran Baqdasaryan olur. Kəşfiyyat və təxribat hərəkətlərində məsuliyyəti Misak Torlakyan öz boynuna götürür. "AG-114" casus qrupu da daşnak Ermənistanın (1918-1920) keçmiş ordusunun mənsublarından ibarət idi.

Daşnak lideri Dro Kanayanın 1942-ci ildə anti-sovet fəaliyyəti haqqında SSRİ DTK-nin 4-cü idarəsinin 17 dekabr 1942-ci il tarixli məlumatında bildirilirdi ki, almanların istifadə etdiyi erməni daşnak dairəsində məşhur olan Kanayan Drastamat Martirosoviç Dro ləqəbi ilə tanınırdı. Dro daşnak Ermənistanın keçmiş hərbi naziridir, 1925-ci ilə qədər SSRİ-də, sonra Rumıniyada yaşamışdır. Sonuncuda onun şəxsi mühafizəsində döyüş qrupu olmuşdur. Almaniya SSRİ-yə hücum edənə qədər Dro faşistlərlə əlaqə yaratmağa cəhd etmiş, müharibənin əvvəlində Almaniyaya gəlmiş, erməni kəşfiyyatçı kadrların yaradılması ilə fəal məşğul olmuşdur. (Абрамян Э. Кафказцы в Абвере. М., 2006, с.245)

1942-ci ilin dekabrında general Drastamat Kanayan və erməni yazıçısı Garo Gevorkyan Henrix Himmlerin qəbulunda olur və ona pastor Lepsiusun "Erməni xalqının ölümcül yürüşü" kitabını təqdim edirlər. Himmlerin və general Dronun (Drastamat Kanayanın) çağırışı ilə 30 minə qədər erməni alman ordusuna qatılır və döyüşlərdə iştirak edir.

İkinci Dünya müharibəsi illərində Dro alman ordusunda (Vermaxtda) ermənilərdən təşkil olunan 812-ci taborun rəhbəri təyin edilir. Almanlar Krım və Şimali Qafqazı işğal etmək istəyəndə Qafqaz cəbhəsində vuruşan Dro günahkar elan edilsə də, sonradan bağışlanılır. Bundan sonra Beyrutda ticarət işlərinə başlayır, lakin xəstələndiyi üçün ticarət işini dayandırmağa məcbur olan Dro ABŞ-a aparılır, 1956-cı ildə Bostonda dünyasını dəyişir. Dronun nəşi 2000-ci ildə ABŞ-dan Ermənistana gətirilmişdir.



Dro Kanayanın məsləkdaşı və azərbaycanlıların düşməni olan **Qaregin Njde (əsl adı Qaregin Yeğişe Ter-Harutyünyan)** 1886-cı il yanvar ayının 1-də İrəvan quberniyasının Naxçıvan qəzasının Güznüt kəndində (indiki Babək rayonu) anadan olmuş, Azərbaycan torpağının nemətləri ilə böyümüşdür. Naxçıvan şəhərində rus məktəbini bitirən Qaregin Tiflis rus gimnaziyasında təhsilini davam etdirmiş, 17 yaşında Erməni Liberal Hərəkatına qatılmış, qısa bir müddətdən sonra təhsilini davam etdirmək üçün Sankt-Peterburqa getmişdir.

1902-ci ildə Peterburq universitetinin hüquq fakültəsinə daxil olan Qaregin 1904-cü ildə təhsilini yarımçıq qoyaraq erməni millətçilərinə qoşulmuş, Osmanlı İmperiyası və çar Rusiyasına qarşı olan Erməni Beynəlxalq hərəkatına daxil olmaq üçün Cənubi Qafqaza geri dönmüşdür. 1906-cı ildə Bolqarıstana gedən Njde 1907-ci ildə əsgəri hazırlığını tamamlamışdır.

1908-ci ildə "Daşnaksütyun"a daxil olaraq NJDE (Əbədi cəlayi vətən) ləqəbini almış Qaregin Yeprem Xan və Mustafa Sebastianla bərabər "Gənc türklər" inqilabında iştirak edir. 1909-cu ildə Cənubi Qafqaza geri dönəndə Njde ruslar tərəfində tutulur və 3 il həbsdə yatır. 1912-ci ildə general Andranik Ozanyan ilə bərabər Trakiya və Makedoniyanın azadlığı üçün Balkan vuruşlarında Osmanlı İmperiyasına qarşı bolqar ordusunun "Makedon-Adriyanapol Könüllü dəstələri" adı altında erməni taboru yaradır. Drastamat Kanayanın (Dronun) başçılıq etdiyi erməni könüllü dəstəsinin komandir müavini təyin olunan Njde 1915-ci ilin mayında 3-cü dərəcəli "Müqəddəs Vladimir", 4-cü dərəcəli "Müqəddəs Anna" ordenləri ilə, həmin ilin iyulunda isə 2-ci və 3-cü dərəcəli "Georgi xaçı" ilə təltif olunmuşdur.

İkinci Balkan müharibəsində yaralanan Njde Bolqarıstanın "Cəsarət xaçı" ilə mükafatlandırılmışdır.

Birinci Dünya müharibəsi başlamamışdan əvvəl çar Rusiyası dövləti tərəfindən elan edilən əfvdən sonra Njde Osmanlı İmperiyasına qarşı vuruşmaq üçün rus ordusu tərəfindən könüllü erməni dəstələri hazırlamaq məqsədilə Cənubi Qafqaza göndərilir. Birinci Dünya müharibəsi başlayanda Rusiya İmperiyasının Sofiyadakı səfirliyinə gələn Qaregin Njde öz xidmətlərini təklif etmişdir.

Daşnakların Türkiyəyə qarşı vuruşan dəstələrindən birinə rəhbərlik edən Njde Ermənistan respublikasının ordu quruculuğu məsələləri ilə də məşğul olmuşdur.

1919-cu ilin sentyabrında daşnak hökuməti tərəfindən Zəngəzura göndərilən Njdenin qarşısına əraziləri azərbaycanlılardan təmizləmək vəzifəsi qoyulur. Njdenin rəhbərlik etdiyi silahlı dəstələr azərbaycanlılar yaşayan kəndləri yandırır, əhalisini qətlə yetirir və evlərindən qovurlar. Njdenin başçılıq etdiyi dəstələr Vedibasarda və Göyçə mahalında azərbaycanlı əhaliyə qarşı qırğınlar törədirlər. Onun dəstələri 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusu ilə döyüşlərdə iştirak edir.

1920-ci ilin aprelində Azərbaycan sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Njde sovet ordusunun hərbi birləşmələri ilə də döyüşlər aparır. 1920-ci ilin sentyabrında sovet ordusunun hissələri Qafanı tutur, Njde öz dəstələri ilə Mehri tərəfə çəkilir və burada mövqe tutur. 1920-ci ilin qışında Njde Zəngəzurdakı digər erməni dəstələri ilə birgə qırmızı ordunu sıxışdırıb çıxara bilir. 1920-ci dekabrın 25-də Njde və silahdaşları Zəngəzurda "Dağlıq Erməni Respublikası"nın yaradılmasını elan edirlər. 1921-ci ilin fevralında Ermənistanda kommunistlərə qarşı yönəlmiş üsyan qırmızı ordunun əsas qüvvələrini İrəvan üzərinə göndərməyə vadar edir. Bu zaman ərzində silahlı erməni dəstələri Qarabağ və Naxçıvanda yaşayan azərbaycanlı əhalinin kütləvi qətllərini törədir.

Qaregin Njde özünü yaratdığı oyuncaq respublikanın "ali baş komandan"ı elan etmişdir. Lakin iyulun ilk günlərində hücuma keçən sovet qoşunları erməni dəstələrini darmadağın edir və Njde öz dəstələrinin qalıqları ilə İrana qaçır.

Qafqazdan qaçandan sonra Njde Bolqarıstana gəlir və bu ölkənin vətəndaşlığını qəbul edir. 1933-cü ilin yayında ABŞ-a köçən Njde Tanderqyana türk səfiri Muxtar bəyin öldürülməsində kömək edir. ABŞ-da Njde *"Tsexarkon"* hərəkatını təsis edir və 1937-ci ildə "Daşnaksüytun"un sıralarından ayrılaraq faşist Almaniyası ilə əlaqələr yaradır, Rozenberqlə görüşür, onları Türkiyəyə hücum etməyə çağırır və öz köməyini təklif edir.

Razılaşmaya görə, Türkiyə dövlətinə qarşı hücumda ermənilər Hitler Almaniyası üçün 100 min adam toplamalı idi. Bütün bu məsələlər detalları ilə erməni-alman razılaşmasında - "Gertrud" planında əksini tapmışdır. *Əvəzində ermənilərə Şərqi Anadolu və Kilikiya vəd olunmuşdu. (Буланова О. Армянская помощь фащистской Германии. Газ. "Эхо", 2017, 20 май, №86)*

Daşnakların nasistlərə əhəmiyyətli xidmətlərindən biri də sovet arxa cəbhəsində və işğal bölgələrində təbliğat fəaliyyətləri idi. Bu qrupların birinin başında məşhur daşnak lideri S.Cəlabyanın SS zabiti olan oğlu *Nikolay Gevorkyan* (uydurulmuş adı "Doktor Sikorskiy", "Gevorkov") dururdu. İşğal bölgələrində onlar erməni əhalisi arasına agentlərini yerləşdirərək kəşfiyyat fəaliyyəti göstərirdilər.

Almanlara görə ermənilər millət olaraq kəşfiyyatçılığı yaxşı bacarırdı. Qafqazda almanlar onların verdiyi məlumatlardan yararlanırdılar. Yəhudilərin aşkar edilməsində və almanlara təhvil verilməsində ermənilərin "çox böyük xidməti" olmuşdur. Onlar əsirləri testdən keçirərək yəhudi olduğunu təsbit edirdilər. Özünü erməni olaraq təqdim edən və bununla ölümdən xilas olmaq istəyən yəhudi əsirə erməncə kitab və ya İncili verərək gerçək milliyyətlərini öyrənir və onların erməni deyil, yəhudi olduğunu bildirirdilər.

Erməniləri almanlar tərəfinə cəlb etmək, onları Hitlerə xidmətə çağırmaq məqsədilə Almaniyada "Hayastan" qəzeti nəşr olunurdu. Qəzetin bütün redaksiya heyəti ermənilərdən təşkil olunmuşdu. Qəzet Hitler Almaniyası tərəfindən maliyyələşdirilir və *III Reyxin təbliğat naziri Göbbelsin* birbaşa nəzarətində idi.

*(Ardı var)*

***Mais ƏMRAHOV,***
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə elmlər doktoru, professor***

# Paytaxtda qəzalı binadakı sakinlər köçürülür

Dövlət başçısı İlham Əliyevin tapşırıqları və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Bakı şəhərinin rayonlarında kəskin qəzalı vəziyyətdə olan, bərpa-gücləndirmə və əsaslı təmir işlərinin aparılması mümkün olmayan binalarda yaşayan sakinlərin köçürülməsi istiqamətində işlər davam etdirilir.







Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müvafiq dövlət qurumlarının apardıqları araşdırmalara əsasən paytaxtın müxtəlif rayonlarında 17 bina müəyyənləşdirilib və bu binalardakı mənzillərdə yaşayan sakinlərin köçürülməsinə başlanılıb.

Qəzalı vəziyyətdə olan binalardan biri də Yasamal rayonu, Mirzə Ağa Əliyev küçəsi 150 ünvanında yerləşən üçmərtəbəli, 43 mənzilli binadır. Bina 1889-cu ildə inşa edilib və uzun müddət əsaslı təmir olunmadığından qəzalı, yaşayış üçün yararsız vəziyyətə düşüb.

Vaxtilə Bakı Şəhər XDS İcraiyyə Komitəsinin 16.06.1989-cu il tarixli, 5/195 saylı qərarı ilə bina qəzalı hesab edilərək sakinlərin oradan köçürülməsinə başlanılıb. Həmin ildə binadan 23 ailə köçürülüb, sonradan isə işlər yarımçıq qaldığından burada boşalmış mənzillər məcburi köçkünlər tərəfindən zəbt olunub.

Son illərdə binada vəziyyət daha da ağırlaşıb, 2011 və 2017-ci illərdə Fövqəladə Hallar Nazirliyi, "Azərdövlət-tikintilayihə" Dövlət Layihə İnstitutunun mütəxəssislərinin burada keçirdikləri təkrar baxışlar bina ilə bağlı əvvəlki rəyləri bir daha təsdiqləyib, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə onların dərhal köçürülməsi, ərazinin hasarlanması və həyətə girişin məhdudlaşdırılması ilə bağlı akt tərtib olunub.

Hazırda binadan sakinlərin köçürülməsi işləri davam edir. Bununla əlaqədar bəzi sakinlər ayrılan kompensasiyaların onları qane etməməsi və digər bu kimi tələblər irəli sürərək öz narazılıqlarını bildiriblər.

Dövlət başçısı İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın məsələyə dair tapşırıqları ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, eləcə də Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov qəzalı binada olub, burada yaşayan sakinlər və məskunlaşmış məcburi köçkünlərlə görüşərək onların problemləri ilə yaxından tanış olub, istək və arzularını dinləyiblər.

Eldar Əzizov binanın kəskin qəzalı olması ilə əlaqədar sakinlərin buradan təcili köçürülməsinin vacibliyini vurğulayaraq bildirib ki, buradakı köçürülmə dövlət əhəmiyyətli tədbirlərlə bağlı köçürülmə deyil, binanın istismara yararsız, qəzalı vəziyyətdə olması ilə bağlıdır və vətəndaşlara ödəniləcək vəsait kompensasiya deyil, maddi yardım kimi qiymətləndirilməlidir. Sözügedən bu binada sakinlərin köçürülməsi ilə bağlı ödəniləcək məbləğ şəhər üzrə maksimum həddə müəyyən edilib.

Görüşdə edilən müraciətlərlə bağlı yaşayış sahələrinin yenidən ölçülməsi ilə əlaqədar müvafiq tapşırıq verildi. Eyni zamanda binada məskunlaşmış məcburi köçkünlərin yerləşdirilməsi və bu zaman onların arzu və istəklərinin nəzərə alınması ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edilib.

Eldar Əzizov bildirib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən bu binada həyata keçiriləcək köçürmə işlərinin tez bir zamanda, vətəndaşların hüquqlarının pozulmasına yol verilməməsi və onlara müvafiq köməkliklərin göstərilməsi ilə bağlı tapşırılar verilib, məsələ nəzarətə götürülüb. Həmçinin sakinlərə bildirilib ki, söküləcək binanın yerində hər hansı çoxmərtəbəli bina və ya ticarət obyektinin inşası nəzərdə tutulmayıb.

İki saatdan çox çəkən görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı sakinlərə mövcud qanunvericiliyə uyğun olaraq real imkanlar daxilində hər cür köməklik göstəriləcəyini, binada köçürülmə işlərinin nəzarətdə saxlanılacağını qeyd edib. Sakinlər görüşdən razı qaldıqlarını bildiriblər.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin avqust ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**08 avqust 2019-cu il**
1. Astara rayonu
2. İmişli rayonu
3. Ağsu rayonu
4. Qubadlı rayonu

**22 avqust 2019-cu il**
1. Sumqayıt şəhəri
2. Lənkəran rayonu
3. Şamaxı rayonu
4. Şuşa rayonu

**Qeyd:** qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.

## Atəşkəs rejimi 19 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Kəngərli, Mərzili, Füzuli rayonunun Qərvənd, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## DSX rəisi "Qazax" əlahiddə sərhəd diviziyasının xidməti-döyüş fəaliyyətini yoxlayıb

İyulun 29-30-da Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinin xidməti-döyüş fəaliyyətini yoxlayıb, sərhəd döyüş məntəqələrində şəxsi heyətlə görüşüb, xidməti və yaşayış şəraitlərinə baxış keçirib.



Xidmət rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti, dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun yaradılması məqsədilə görülən işlərlə tanış olub.

Dövlət Sərhəd Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş xidməti müşavirədə hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

*"Azərbaycan"*

## Qəzaya uğramış hərbi təyyarənin axtarışlarına xarici mütəxəssislər və müasir avadanlıq cəlb olunub

İyulun 24-də təlim-məşq uçuşları zamanı qəzaya uğramış Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin axtarışı üzrə keçirilən əməliyyatlara müasir sualtı robotlar və digər avadanlıq, o cümlədən xarici mütəxəssislər və peşəkar dalğıclar cəlb olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyatlara əlavə qüvvələrin qatılması məqsədilə Türkiyə Respublikasının aidiyyəti qurumlarına da müraciət edilib. Yaxın zamanda türkiyəli mütəxəssislərin ölkəmizə gəlməsi gözlənilir.

Eyni zamanda əməliyyatın əhatə sahəsi genişləndirilərək, ölkəmizin aidiyyəti qurumlarının xeyli sayda gəmi, kater və aviasiya vasitələri də axtarışlarda daim iştirak edirlər.

Qeyd edək ki, qəza baş verən andan bugünədək davam edən əlverişsiz küləkli hava şəraitinə baxmayaraq, Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiyanın rəhbərliyi ilə axtarış əməliyyatları hazırda da intensiv aparılır.

# Beynəlxalq aləm

## Türkiyədə təhlükəli terrorçular zərərsizləşdirildi

Türkiyə Hərbi Hava Qüvvələri PKK terrorçu təşkilatının üzvü Mehmet Bilal Kaplanı məhv etmişdir. Bu barədə ölkənin Milli Müdafiə Nazirliyi məlumat verib.

Bildirilir ki, hava əməliyyatı İraqın şimalındakı Zap regionunda keçirilmişdir.

Məhv edilmiş terrorçunun adı Türkiyə Daxili İşlər Nazirliyinin "boz siyahı"sında yer almışdı.

Kaplan "Hvinrej Çarçella" kodlu ləqəblə tanınırdı.



Daxili İşlər Nazirliyinin digər məlumatında bildirilir ki, başına 300 min türk lirəsi məbləğində mükafat qoyulmuş terrorçu ələ keçmişdir. O da xüsusilə təhlükəli cinayətkarların "boz siyahı"sı üzrə axtarılırdı.

Bundan əvvəl həmin terrorçu Ərzurum vilayətinin Karayazı rayonunun hakimiyyət orqanları nümayəndəsi Savci Küçükün və onun qardaşı oğlu Ahmet Küçükün öldürülməsində təqsirli bilinmişdi.

Xatırladaq ki, Küçük və qardaşı oğlu ötən ayın 18-də qətlə yetirilmişlər.

## Braziliya həbsxanasında qiyam zamanı 52 məhbus həlak oldu

Braziliyanın şimalında yerləşən Para ştatındakı Altamira bələdiyyəsi həbsxanasında baş vermiş iğtişaşlar zamanı azı 52 məhbus həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, qiyam beş saata yaxın davam etmişdir. Qeyd olunur ki, 16 məhbusun başı kəsilmiş, digərləri bilərəkdən törədilmiş yanğın zamanı həlak olmuşlar.

Məhbuslar penitensiar müəssisəsinin iki əməkdaşını girov götürmüşdülər. Sonradan onları azad etmək mümkün olmuşdur.

Xatırladaq ki, may ayında Amazonas ştatındakı həbsxanada analoji hadisə baş vermişdi. O vaxt 55 məhbus həlak olmuşdu.

## İdlibin bombardmanı zamanı 15 dinc sakin öldürüldü



Rusiya Hərbi Kosmik Qüvvələri və Bəşşar Əsəd rejimi aviasiyasının İdlibdəki deeskalasiya zonasının bombardmanı zamanı həlak olmuş dinc sakinlərin sayı 15-ə çatmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Suriya müxalifətindəki mənbələrin verdiyi məlumata görə, Marratinnuman rayonu, həmçinin belə Həma əyalətindəki Latmin kəndi Əsəd rejiminin hava zərbələrinə məruz qalmışdır.

Rusiya aviasiyası Kəfər Zita rayonunu bombardman etmişdir. Qurbanların sayı arta bilər.

Son 10 gün ərzində deeskalasiya zonasında həlak olmuş dinc suriyalıların sayı 123 nəfərə çatmışdır.

## Yaponiyada istilər ahıl sakinləri öldürür

Son bir həftə ərzində Yaponiyada anomal istilərdən azı 11 nəfər dünyasını dəyişmiş, 6 minə yaxın adam günvurma diaqnozu ilə xəstəxanalara yerləşdirilmişdir. Həlak olanların və zərərçəkənlərin əksəriyyəti ahıl adamlardır.

Ötən həftə Yaponiyada yağışlar mövsümünün bitdiyi rəsmən bildirilmiş, havanın hərarəti 32-33 dərəcəyə yüksəlməyə başlamışdır. Yerli hakimiyyət orqanları əhalini baş örtükləri gəzdirməyə, çoxlu maye qəbul etməyə və uzun müddət Günəş altında qalmamağa çağırır.

Ötən il Yaponiyada isti havaya görə 150 nəfərdən çox adam həlak olmuş, on minlərlə sakin xəstəxanalara yerləşdirilmişdi.

## Pakistanda təyyarə qəzaya uğradı

Pakistanın şimal-şərqində hərbi təyyarənin qəzaya uğraması nəticəsində həlak olanların sayı 19 nəfərə çatmışdır. Onların arasında yerli sakinlər də var. 16 nəfər müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanalara yerləşdirilmişdir. Bu barədə "Dunya News" telekanalı xəbər verir.

Pakistan aviasiyasının təyyarəsi dünən gecə Ravalpindi şəhəri üzərində təlim uçuşu zamanı yerə çırpılmışdır. Bundan sonra təyyarə yanmışdır. Yanğın yaxınlıqdakı evlərə yayılmışdır.

Qəzanın səbəbləri araşdırılır.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatında istismarda olan printerlərin kartriclərinin dolumunun və texniki xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 5 avqust 2019-cu il saat 15:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 30 may 2019-cu il tarixdə Astara rayonu Şüvi-Sekaşan, Pəlikeş-Diqo, Abyerud, Doli və Sipiyyət kəndləri üzrə 10/0,4 kV- luq xətlərin çəkilişi işlərinin satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə "İMA-Energy" MMC şirkəti qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Tender komissiyası bildirir ki, dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə 20 iyun 2019-cu il tarixdə keçirilmiş açıq tenderin yekun protokoluna uyğun olaraq "İNCİ GROUP OF COMPANİES" MMC qalib elan edilmiş və bu təşkilat ilə satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri A.Abasova və şöbənin əməkdaşları M.Qurbanov, A.Vəliyev, N.Heydərov, H.Şirinov, T.Kazımzadə, S.Rəhimova, G.İbrahimova, T.Qurbanova, F.Nəbiyeva, Ə.Nuralibəyov və L.Nəbiyeva Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri N.Səfərov və şöbənin əməkdaşları S.Kərimov, E.Əskərov, E.Vəliyev, T.Şeyxzamanov, R.Cəlilov, E.Nuriyev, T.Tağıyev, L.Baloğlanova, K.Paşayeva, E.İsmayıl, M.Süleymanlı və M.Qəmbərova Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Həmkarlar İttifaqı Komitəsinin sədri Rəfael Qafarov Aparatın Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin Aqrar siyasət komitəsinin üzvləri E.İbrahimov, E.Quliyev, M.Aslanov, N.Aslanov, A.Hüseynov, E.Quliyev, İ.Məmmədov, H.Mirələmov, C.Paşazadə, E.Səlimov, T.Süleymanov və Milli Məclisin əməkdaşları V.Əlizadə, Z.Abbasov və İ.Hüseynov Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Fuad Məmmədov, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, Ayxan Kazımov, Yunis İsmayılov, İsmayıl Cəfərov, Rüfət Ələkpərov, Səməd Sultanov, Sədaqət Bağırova, Ceyhun Əliyev və Əsmər İsmayılova şöbənin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin əməkdaşları Məhəmməd Bazıqov, Vilayət Əlizadə, Rövşən Muradov, Nadir Sultanov, Vasif Əmiraslanov, Niyazi Əzimov, Zeynal Ələkbərov, Cahid Məmmədov, Rəşad Mehdizadə, Əkbər Salehov, Fərid Hacıyev, Nigar Qurbanova və Məhəmməd Gülməmmədov Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8906
Sifariş 2498
Qiyməti 40 qəpik